# Şərqi Zəngəzurda güclü sənaye potensialı yaradılır

**İşğaldan azad olunmuş torpaqlarımızın dirçəldilməsi, bu ərazilərdə həyatın əvvəlki məcrasına qaytarılması strategiyasında sənayeləşmə siyasəti mühüm yer tutur.**

Son zamanlar Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında yerli və xarici investisiyalar hesabına sənaye parklarının yaradılması prosesi getdikcə sürətlənir. Hazırda həmin ərazilərin iqtisadi potensialının hərəkətə gətitilməsi üçün lazımi infastrukturun yaradılması sürətlə davam etdirilir. Bu baxımdan Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında da təqdirəlayiq işlər görülür, bölgədə iqtisadi fəallığın təməli qoyulur.

**(ardı 8-ci səhifədə)**



Xalqın qəzeti!

# Xalq qəzeti

№ 218 (30622) 5 oktyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qarabağa Qayıdışımız anti-Azərbaycan dairələrə gözdağıdır



Səhifə ⇨ 2

# TDƏŞ-dən TDT-yə, Naxçıvandan Turana doğru

*Oktyabrın ilk ongünlüyü Türk dünyası üçün əlamətdar tarixdir*

**Dünən axşam Azərbaycan televiziya kanallarının, demək olar ki, hamısında İkinci Qarabağ müharibəsinin məhz bu günündə baş vermiş hadisələr xatırladılır, əsgərlərimizin şücaətindən, Ali Baş Komandanımızın qətiyyətindən söz açmaqla yanaşı, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla, Türk dünyasının yanımızda olduğu qeyd edilirdi.**



Həmin qədirbilənlik nümunəsi olan fikirləri eşidəndə mən Türk dünyasının iki böyük liderinin bütün bədxahlarımıza göz dağı olan deyimlərini xatırladım. Birinci, müharibənin ilk günlərində cənab Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işini qınamaq istəyən ermənipərəst qüvvələrə xitabən demişdi ki, Azərbaycan tək deyil, biz onun yanındayıq. İkinci, düşmənin diz çökdürülməsindən sonra, işğaldan azad edilmiş ərazilərimizin bərpasında Qazaxıstan, Özbəkistan, Qırğızıstan dövlətlərinin səmimiyyətlə iştirakını görən Azərbaycan Prezidenti İlham Əliyev dünyanın hər yerində eşidiləcək bir tərzdə bəyan etmişdi ki, biz böyük türk ailəsinin üzvüyük və bizim türk ailəsindən başqa ailəmiz yoxdur. Onun ardınca, sosial şəbəkələrdəki türk qardaşlarımızdan biri yazdı ki, Bakı inkişafa doğru gedən Türk dünyasının əsas lokomotivlərindən birinə çevrilir.

O ki qaldı oktyabrın ilk ongünlüyünün bütün Türk dünyası üçün əlamətdar tarix səhifəsi olmasına, fəxrlə deyə bilərik ki, 15 il əvvəl, oktyabrın bu günlərində Naxçıvanda ərsəyə gəlmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası bilavasitə Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünün nəticəsi idi. İctimai-siyasi fəaliyyətinin bütün dövrlərində mütərəqqi, eyni zamanda, həlli mümkün olan təşəbbüslərlə çıxış etmiş İlham Əliyev təkcə Türk dünyasında və ya İslam aləmində deyil, bütün dünyada uğurlu siyasətçi kimi tanınır. Elə TDƏŞ-in Türk Dövlətləri Təşkilatına çevrilməsi də məhz onun təşəbbüsü olmuşdur.

*(ardı 5-ci səhifədə)*

## "ACWA Power" də COP29-un rəsmi tərəfdaşı seçilib




Səhifə ⇨ 9

## Paşinyan Parisə təlimata gedib



Səhifə ⇨ 5

## 27 yaşlı Paralimpiya qəhrəmanımız



Səhifə ⇨ 11

# Müstəqillik bəyannaməsindən imtina?

*Rəsmi İrəvanın yeni sülh manipulyasiyası nəyə hesablanıb?*

**Ermənistanın Konstitusiya Məhkəməsi ölkənin Müstəqillik bəyannaməsinin qüvvəsini dayandırdığını bildirir. Məhkəmə öz qərarı ilə bəyannamədə əksini tapan, lakin konstitusiyada bilavasitə göstərilməyən tezislərin hüquqi qüvvəyə malik olmadığı qənaətinə gəlib. Əvvəlcə, bu barədə bir qədər ətraflı söz açaq.**

Beləliklə, Ermənistan Konstitusiya Məhkəməsi Azərbaycanla sərhədin delimitasiyası üzrə komissiyaların işi haqqında əsasnamə layihəsini ölkənin əsas qanununa uyğun sayıb. Hadisə sentyabrın 26-da olub. Ancaq indi bununla bağlı qərarın özündə təkcə delimitasiya prosesinə deyil, həm də ümumi məsələlərə, o cümlədən, Müstəqillik bəyannaməsinə aidliyi bildirilir. Qərarda bəyannamənin ermənilərin SSRİ-dən ayrılaraq öz dövlətlərini əldə etmələrinə kömək göstərdiyi, lakin konstitusiyanın qəbulundan sonra onun əhəmiyyətini itirdiyi vurğulanıb. Deməli, Əsas qanunda açıq şəkildə əks olunmayan müddəaların hüquqi qüvvəsi yoxdur.

Məlum olduğu kimi, Bakı İrəvanla sülhün şərti qismində Ermənistanın qanunvericilik sənədlərində yer alan ərazi iddialarına son qoyulmasını tələb edib. Məhz bu tələb fonunda Ermənistanda konstitusiya dəyişiklikləri ilə bağlı məsələ gündəmə gəlib. Rəsmi İrəvan dəyişikliyin 2027-ci il üçün planlaşdırıldığını bəyan edib və iki illik müddəti prosesin ictimai müzakirələrdən keçməsi zərurəti ilə əsaslandırıb. Baş nazir Nikol Paşinyanın komanda üzvləri, eyni zamanda, konstitusiya dəyişikliyinin Azərbaycanın tələbi əsasında həyata keçirilmədiyini bildiriblər.

Yeri gəlmişkən, N.Paşinyan bir neçə gün əvvəl BMT Baş Assambleyasının 79-cu sessiyasındakı çıxışında da sözügedən mövzudan bəhs etmişdi. Azərbaycanla sülhdən danışan baş nazirin dediklərindən bu qənaət hasil olmuşdur ki, barış müqaviləsi üzrə əsas məqamlar ətrafında kompromis əldə edilərsə, sənəd Ermənistan Konstitusiya Məhkəməsinə göndəriləcək və əgər müəyyənləşsə ki, sülh sazişi Əsas qanunla ziddiyyət təşkil edir, o zaman konstutusiya dəyişikliyinə gediləcək: "Konstitusiya məhkəməmiz müqavilənin Ermənistan konstitusiyasına zidd olduğuna qərar verərsə (baxmayaraq ki, ekspertlərimiz bunun qeyri-mümkün olduğuna əmindirlər), buna baxmayaraq, bu halda biz konstitusiya dəyişikliklərinin sülh bağlamaq üçün zəruri olacağı konkret vəziyyətlə üzləşəcəyik. Konstitusiya məhkəməsi müqavilənin konstitusiyaya uyğunluğunu təsdiqləsə, sənədin ratifikasiyasına heç bir maneə olmayacaq".



*(ardı 4-cü səhifədə)*

# Qarabağa Qayıdışımız anti-Azərbaycan dairələrə gözdağıdır

## Prezident İlham Əliyev Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 4-də Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında iştirak ediblər, yeni evlərə köçən şəhər sakinlərinə mənzillərin açarlarını təqdim ediblər. Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri Sadiq Sadıqov dövlətimizin başçısına və birinci xanıma yaşayış kompleksində görülən işlər barədə məlumat verdi. Bildirildi ki, Cəbrayıl yaşayış kompleksinin ümumi sahəsi 7,9 hektardır.**

**Kompleks 7-si beşmərtəbəli və 26-sı dördmərtəbəli olmaqla 33 yaşayış binasından ibarətdir. Bu binalarda, ümumilikdə, 712 mənzil var. Onlardan 8-i birotaqlı, 136-sı ikiotaqlı, 8-i ikiotaqlı studio tipli, 392-si üçotaqlı, 168-i isə dördotaqlıdır. Birotaqlı mənzillərin sahəsi 45-50 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi 55-90 kvadratmetr, ikiotaqlı studio tipli mənzillərin sahəsi 98-100 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 90-108 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 110-120 kvadratmetr təşkil edir. Bütün mənzillər tam təmirli, mətbəx mebeli, qaz plitəsi, kombi isitmə sistemi, su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş şəkildə vətəndaşlara təhvil verilir. Altı kvartaldan ibarət kompleksin inşası keyfiyyətlə həyata keçirilib. Yaşayış binaları ilə yanaşı, ərazidə sosial-məişət obyektləri, yeraltı və yerüstü avtodayanacaqlar, istirahət guşələri, uşaq əyləncə və idman meydançaları istifadəyə verilib. Dövlətimizin başçısı tədbirdə çıxış etdi.**



## Prezident İlham Əliyevin çıxışı

– Bu gün Cəbrayıl şəhərinin azad olunmasının dördüncü ildönümüdür. Bu münasibətlə sizi, bütün cəbrayıllıları, bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu gözəl hadisəni biz dörd il sonra bu gün Cəbrayılda qeyd edirik. Bildiyiniz kimi, mənim sərəncamımla 4 Oktyabr – Cəbrayıl Şəhəri Günü elan edilmişdir. Əminəm ki, bundan sonra biz hər il bu gözəl günü qeyd edəcəyik.

Cəbrayılın azad olunmasının çox böyük əhəmiyyəti vardır. Çünki İkinci Qarabağ müharibəsi dövründə işğalçılardan azad edilmiş birinci şəhər idi. O vaxta qədər artıq müharibə bir həftə idi ki, gedirdi və 20-yə yaxın kənd azad edilmişdi, o cümlədən Cəbrayıl rayonunun kəndləri. Ancaq şəhər olaraq birinci şəhər Cəbrayıl olmuşdur və Cəbrayıl əməliyyatı xüsusi əhəmiyyətə malik idi. Ordumuz, silahlı qüvvələrimiz böyük peşəkarlıq, qəhrəmanlıq göstərmişdir və işğalçıları Cəbrayıl şəhərindən qovmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Azərbaycan Silahlı Qüvvələri Vətən müharibəsində əsl qəhrəmanlıq, fədakarlıq, rəşadət göstərmişdir. Biz şəhidlərimizlə əbədi fəxr edəcəyik. Əlbəttə, Cəbrayıl şəhərinin azad olunması həm müharibənin sonrakı gedişatına müsbət təsir göstərmişdir, eyni zamanda, ordumuzun və ümumiyyətlə, xalqımızın mənəvi ruhunu yüksəltmişdir. Bizim hamımızda inam var idi ki, bu müharibə bizim Zəfərimizlə başa çatacaq və hər yaşayış məntəqəsinin azad edilməsi, o cümlədən, şəhərlərimizin azad edilməsi bu inamı daha da artırırdı.

Cəbrayıldan bir neçə gün sonra uğurlu Hadrut əməliyyatı keçirilmişdir. O da çox böyük peşəkarlığa malik olan əməliyyatdır. Düşmənin orada çox möhkəm istehkam mövqeləri var idi, özü də bütün təpələrdə onlar yerləşmişdi, Cəbrayılda da, həmçinin. Şəhəri azad etmək üçün bizim qəhrəman övladlarımız bir neçə müdafiə xəttini yarmalı idi və bunu edə bilmişdilər.

Hadrutdan sonra Füzuli əməliyyatı oktyabrın 17-də uğurla başa çatmışdır və yolumuz həm Şuşaya, həm Zəngilan və Qubadlı istiqamətinə açılmışdır. Müzəffər Ordumuzun zəfər yürüşü bundan sonra daha sürətlə getmiş və qeyd etdiyim kimi, döyüş meydanında böyük yaşayış məntəqələri - Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, rayonlarını, Laçın rayonunun bir neçə kəndini və nəhayət noyabrın 8-də Şuşa şəhərini azad edə bilmişik. Bütövlükdə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Beləliklə, Ermənistan noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu.

Beləliklə, İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizlə başa çatdı. Bu gün bütün Azərbaycan xalqı qəhrəman övladlarımıza minnətdarlıq hissi ilə yaşayır, vətənpərvərlik ruhunda yetişmiş gənc nəsil vaxtilə itirilmiş torpaqlarımızı xalqımıza, dövlətimizə qaytara bilmişdir.

Cəbrayılın inkişafı ilə bağlı dərhal bütün müvafiq tapşırıqlar verilmişdir. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalı idi. Çünki xüsusilə keçmiş təmas xəttinə yaxın olan rayonların minalanması daha genişmiqyaslı idi. İnfrastruktur layihələrinin icrası dərhal başlamışdır və bu gün Cəbrayıla gələn hər bir insan görür, həm köhnə yol, hansı ki, sovet vaxtında olan yol yenidən qurulmuşdur və indi o yolu çox yaxşı xatırlayıram. Çünki Zəfərdən sonra o yolla dəfələrlə bu bölgələrə gəlmişəm. Yeni dördzolaqlı magistral yol uğurla inşa edilir və Zəngilana qədər, Qubadlıya qədər və oradan da Laçına qədər davam edir.

Digər infrastruktur layihələrinin icrası da uğurla, sürətlə həyata keçirilir. Təkcə Cəbrayıl rayonunda yox, bütün azad edilmiş bölgələrdə. Dünən burada olarkən biz yeni məktəbin açılışını qeyd etdik və siz də bilirsiniz ki, gələn həftədən başlayaraq uşaqlar artıq məktəbə gedəcəklər. Bu yeni məhəllədə xəstəxananın tikintisi və müvəqqəti olaraq tibb məntəqəsi də nəzərdə tutulur. Əlbəttə, belə gözəl, gözoxşayan evlər həm dövlətimizin gücünü göstərir, həm də onu göstərir ki, keçmiş köçkünlərin yaşayış şəraitinin lazımi səviyyədə təmin edilməsi üçün Azərbaycan dövləti əlindən gələni əsirgəmir. Birinci məhəllədə çoxmənzilli 33 bina inşa edilib. Burada 712 mənzil inşa edilir. Bu mənzillərin bir hissəsi artıq istifadəyə verilib, bir hissəsinin də istifadəyə verilməsi yaxın aylarda nəzərdə tutulur. Beləliklə, Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilir.

Deyə bilərəm ki, azad edilmiş torpaqlarda aparılan işlər öz miqyasına görə xüsusi xarakter daşıyır. Heç bir başqa yerdə işğaldan, müharibələrdən əziyyət çəkmiş ölkələr bu sürətlə və bu keyfiyyətlə bərpa işlərini bu günə qədər aparmamışlar. Çünki bu işlər genişmiqyaslı və çox dəqiq planlar əsasında görülür. Hər bir şəhərin Baş planları təsdiq edilib. Hər bir kəndin bütün lazımi infrastrukturu nəzərdə tutulur. Dünən mən tikintisi gedən Horovlu kəndinin bərpası ilə tanış olmuşam. Bildiyiniz kimi, Horovlu da Cəbrayıl şəhəri kimi, eyni gündə azad edilmişdir və bir neçə aydan sonra, yəqin ki, gələn ilin birinci yarısında Horovluya da vətəndaşlar qayıdacaqlar.

Amma bununla işlərimiz bitmir. Biz, eyni zamanda, buraya qayıdacaq insanların məşğulluğu ilə məşğuluq. Təkcə dünən Cəbrayıl rayonunda yerləşən beş yeni müəssisənin təməlini qoydum. O vaxta qədər "Araz Vadisi Sənaye Zonası"nda 10-a yaxın müəssisənin həm təməli qoyulmuşdu, həm də ki, bir müəssisə artıq fəaliyyətdədir. Təkcə dünən təməlini qoyduğum müəssisələrdə mindən çox insan çalışacaq. Bu müəssisələri ərsəyə gətirən iş adamlarına da mənim tövsiyəm o idi ki, orada işləyənlərin əksəriyyəti Cəbrayıla qayıdan və qayıdacaq keçmiş köçkünlər olmalıdır. Yəni, həm yaşayış yerləri, həm bütün infrastruktur - su, qaz, elektrik enerjisi, yollar, məktəblər, xəstəxanalar, eyni zamanda, məşğulluq.

Dünən təməlini qoyduğum müəssisələrin fəaliyyətə başlaması gələn il nəzərdə tutulur. Bəlkə də bəzi müəssisələrin daha genişmiqyaslı fəaliyyəti olacaq və ilyarıma ərsəyə gələcək. Yəni, bütün bu işlər bir daha onu göstərir ki, bu torpaqlara bu torpaqların əsl sahibləri qayıdıb. Mənfur düşmən 30 il ərzində bu əraziləri ancaq dağıdıb. Bizim bu görüşümüz də bu dağıntılar arasındadır.

Mən tarixi Zəfərimizdən sonra birinci dəfə Cəbrayıla gələndə dəhşətə gəldim. Biz bilirdik ki, ermənilər bizim torpaqlarımızda öz vəhşiliyini hər yerdə göstərmişlər. Bilirdik ki, ərazilərimizin böyük əksəriyyəti dağıntılar içindədir. Amma bu dərəcədə vəhşiliyi, qeyri-insani hərəkətləri təsəvvür etmək mümkün deyildi. Cəbrayılda demək olar ki, cəmi iki bina qalmışdı. Orada da ermənilərin hərbçiləri yerləşmişdi. Qalan bütün şəhər, bax, bu cürdür və bunu görmək istəməyən, Ermənistana bu gün də dəstək verən, onların işğalçılıq siyasətinə bəraət qazandıran bəzi Qərb dövlətləri də gözlərini geniş açıb baxsınlar. Görürlər, amma görməzliyə vururlar. Bizi ittiham edirlər, bizə qarşı sanksiyalar tətbiq edilir. Ermənistana qarşı 30 il ərzində bir dənə də sanksiya tətbiq edilməmişdir. Ermənistan beynəlxalq hüququn bütün norma və prinsiplərini pozmuşdur, torpaqlarımızın təxminən 20 faizini işğal etmişdir, etnik təmizləmə siyasəti aparmışdır, Xocalı soyqırımını törətmişdir, bütün şəhər-kəndlərimizi viran qoymuşdur. Hansısa Qərb dövlətinin rəsmi nümayəndəsi bir dəfə onlara irad tutubmu? Xeyr. Onlar hətta dünyanın bir nömrəli təşkilatı olan BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə də məhəl qoymurdular. Halbuki Təhlükəsizlik Şurasının qətnamələri mütləq icra edilməlidir. 1993-cü ildə dörd qətnamə qəbul edilmişdir. Kimsə 2020-ci ilə qədər onlara bir söz dedi ki, sən o torpaqları işğal etmisən, oradan çıxmalısan? Xeyr. Minsk qrupu nə ilə məşğul idi – ancaq bu işləri malalamaqla, erməni işğalına müəyyən dərəcədə bəraət qazandırmaqla və bizi alçaldıcı sülhə təhrik etməklə. Minsk qrupunun fəaliyyəti bundan ibarət idi. Biz bütün beynəlxalq platformalarda öz haqq səsimizi ucaldanda bizə deyirdilər ki, sizin sözləriniz çox kəskindir. Bu kəskin ritorika sülhü yaxınlaşdırmır, sülhü uzaqlaşdırır. Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın. Bax, bütün bunları biz eşitmişik, həm rəsmi çıxışlarda, həm bağlı qapılar arxasındakı təmas əsnasında. Bizim isə mövqeyimiz birmənalı, qətiyyətli idi və dəyişməz idi: bir qarış torpaq işğal altında qala bilməz! Məsələ sülh yolu ilə həllini tapmasa, bu məsələni müharibə yolu ilə həll edəcəyik. Mənim sözlərim bütün arxivlərdə vardır. Buna nə desələr yaxşıdır?! Müharibənin, bu münaqişənin hərbi həlli yoxdur. Yəni, Qərb dövlətləri, ilk növbədə, bizi məğlubiyyətlə barışdırmaq üçün bütün çirkin əməllərdən istifadə edirdilər ki, təki biz torpaqları işğaldan azad etməyək. Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular. Amma onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi. Onların təklifləri nədən ibarət idi? Ondan ibarət idi ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə müstəqillik verilsin. Axı, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır, yoxsa yox?! Bu gün Rusiya-Ukrayna müharibəsinə baxın, Qərb dövlətləri, Fransa, Amerika, o birilər nə deyirlər? Deyirlər, Ukraynanın ərazi bütövlüyü bərpa edilməlidir, Ukrayna silahdan istifadə etməlidir. Bütün növ silahları Ukraynaya verirlər. Yaxşı, bəs bizim işğal altında olan torpaqlarımıza niyə münasibət fərqli idi? Axı, bizim də ərazi bütövlüyümüz pozulmuşdu. Bizim insanlar – 1 milyon insan evsiz-eşiksiz qalmışdır. Kim bizə kömək edirdi? Vaqonlarda, yataqxanalarda, uşaq bağçalarında, çadırlarda 1 milyon insan yaşayanda niyə bu dərəcədə ikiüzlülük göstərilirdi? Bu suallara cavab tələb edirik. Amma cavabı biz harada görürük? Yenə də anti-Azərbaycan addımlarında. Bu gün səhər mənə məlumat verildi. Amerika Konqresinin 60 ermənipərəst konqresmeni Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Amerika hökumətinə müraciət etmişdir. Səhər mən o müraciəti vərəqlədim, çirkin bir müraciətdir, bizim iradəmizə təsir edə bilməz. Ancaq bu, nəyi göstərir, bizə qarşı olan düşmənçilik siyasəti dayanmır. O müraciətə baxdıqda mən təxmin etdim ki, bunun müəllifi də, ünvanı da birdir. Çünki bunun ünvanı Amerika Dövlət Departamentinin Dövlət katibidir. Amma məndə bir zərrə qədər şübhə yoxdur ki, bu müraciət Amerika Dövlət Departamentində də yazılır. Yəni, özləri özlərinə məktub yazırlar, bizi hədələmək üçün, bizi ittiham etmək üçün. Axı, biz nə etmişik? Biz öz doğma torpaqlarımızı azad etmişik. Burada erməni yaşayıb? Yox, siz – Cəbrayılın sakinləri.

Başqa yerlərdə də bütün Azərbaycan kəndlərini bax, bu günə qoyublar. Məscidlərimizi dağıdıblar, heyvanxana düzəldiblər, inək-donuz saxlayıblar. Qərbdə bir adam deyib ki, Azərbaycanın mədəni irsi talan edilir, dağıdılır, təhqir edilir? Yox. Ancaq bizi nədə ittiham edirlər? Guya biz hansısa tarixi irsi məhv edirik. Tamamilə əsassızdır. Amerika 1992-ci ildə bizə qarşı sanksiya tətbiq etmişdir, o vaxt ki, torpaqlarımız əldən gedirdi. Sonra sanksiyalar 2001-ci ildə aradan qaldırıldı. Nə üçün? Çünki onların Əfqanıstandakı işğalçılıq fəaliyyəti başlamışdı, işğalçılıq müharibəsi başlamışdı və bizə ehtiyacları var idi. Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, – özü də bütün dünyanın gözü qarşısında, – bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün? Bax buna görə, buna görə, bu binaya görə. Bunun kimi bütün bölgələrdə inşa etdiyimiz, bərpa etdiyimiz keçmiş köçkünlərimizin yaşayış yerlərinə görə. Bax, onların gözü bunu götürmür, bu günü götürmür. Bugünkü gün anti-Azərbaycan qüvvələr üçün yas günüdür, matəm günüdür. Yəni, necə ola bilər ki, bizim icazəmiz olmadan Azərbaycan öz hüququnu bərpa etdi, heç kimdən soruşmadan, heç kimdən qorxmadan, heç kimi saymadan. Öz gücü hesabına, öz övladlarının fədakarlığı hesabına. Bunu bizə bağışlaya bilmirlər və bu gün Azərbaycana Amerikadan sanksiya tətbiq edilir. Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər? Bizim dostumuz odur ki, bu günə sevinir. Mən bunu bir neçə gün bundan əvvəl demişəm. Bu günə məyus olan və bu günü qəbul etməyən heç vaxt bizim dostumuz ola bilməz, bunu Azərbaycan xalqı bilməlidir. Açıq demək lazımdır, yəni diplomatik dillə qoy, diplomatlar danışsın. Mən Azərbaycan xalqına həmişə həqiqətləri demişəm, bütün dövrlərdə və bu gün də həqiqət bundan ibarətdir. Ancaq biz öz gücümüzə arxalanmalıyıq və heç bir vədlərə, heç bir şirin sözlərə, yalançı ifadələrə aldanmamalıyıq. Xüsusilə mən gənc nəsli nəzərdə tuturam. Çünki bu gün anti-Azərbaycan qüvvələrin əsas hədəfi gənc nəsillərin şüurudur. Ona təsir etməyə çalışırlar. Ona görə Azərbaycana qarşı olmazın yalanları uydururlar, tirajlayırlar, öz mətbuatlarında, öz dırnaqarası qeyri-hökumət təşkilatlarında. Anti-Azərbaycan mövqeyində olan müxtəlif ünsürləri bu günə qədər də maliyyələşdirirlər Azərbaycanda, müxtəlif QHT-lər adı altında, hansısa ictimai qurumlar adı altında. Yəni, gənc nəslin şüuruna təsir etsələr, demək olar ki, Azərbaycanın gələcəyinə təsir edəcəklər, heç vaxt gənclər unutmasınlar.

Bu dağıntılar təbii ki, bir müddətdən sonra söküləcək, bunların yerində yeni binalar inşa ediləcək. Ancaq bu mənzərə heç vaxt bizim yadımızdan çıxmamalıdır. Çünki bu işlərdə təkcə Ermənistan günahkar deyil. Əlbəttə, Ermənistan əsas günahkardır. Amma o günahı bölüşənlər onların arxasında o vaxt da, bu gün də duranlardır. Bu gün Ermənistanı silahlandıran Qərb ölkələri görəsən nə fikirləşirlər? Hesab edirlər ki, biz buna göz yumacağıq? Yoxsa ki, biz gözləyəcəyik ki, bax, bu binalar da bu günə düşsün? Xeyr, gözləməyəcəyik. Heç kim bizi çəkindirə bilməz. Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik! Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. O silahlar nə üçün onlara pulsuz verilir? Yəni, dediyim kimi şəhər-kəndlərimizi yenə də bax, bu vəziyyətə salmaq üçün. Nə qədər çalışsalar da, heç nə alınmayacaq. Ancaq bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz.

Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimiz nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik.

Əgər Cəbrayılı, şəhəri azad etmək üçün bizə bir həftə lazım idisə, Qarabağı 44 günə azad etmişiksə, separatçıların yuvası olan o bölgələri cəmi bir neçə saat ərzində azad etmişik. Bizimlə heç kim zarafat etməsin və səbrimizlə də oynamasın. Mən bu sözləri istənilən yerdə deyə bilərdim. Çünki yenə də deyirəm, Azərbaycan xalqına həmişə həqiqətləri deyirəm, fikirlərimi deyirəm. Dünyada vəziyyət dəyişir. Əlbəttə ki, bizim də hadisələrə münasibətimiz adekvat olmalıdır. Ancaq hesab edirəm ki, mən bu sözləri bax, bu dağıntılar və bu gözəl binalar arasında deməliyəm ki, onu həm Azərbaycan xalqı eşitsin, həm bizim dostlarımız eşitsin və bir daha bizim Qələbəmizə sevinsin, düşmənlərimiz də əsəbisin və düzgün nəticə çıxarsın.



Bu gün biz azad edilmiş torpaqlarda yaşayırıq. Bu gün bütün azad edilmiş torpaqlarda, o cümlədən Xankəndidə və Xocalıda Azərbaycan Bayrağı dalğalanır. Azərbaycan vətəndaşları artıq Şuşada, Laçında, Füzulidə, Xankəndidə, Xocalıda, Cəbrayılda – bu şəhərlərdə və bir neçə kənddə yaşayır. 100-ə yaxın kəndin bərpası davam edir və biz Böyük Qayıdış Proqramını uğurla icra edirik.

**(ardı 3-cü səhifədə)**

# Qarabağa Qayıdışımız anti-Azərbaycan dairələrə gözdağıdır





(əvvəli 2-ci səhifədə)

Sizə isə mən burada xoşbəxt həyat arzulayıram. Siz buna layiqsiniz. Siz uzun illər çadırlarda, qaçqın düşərgələrində yaşamısınız. Biz imkan daxilində çalışmışıq ki, həyatınızı bir az yüngülləşdirək. Burada artıq 100-dən çox insan məskunlaşıb, bu gün də, dünən də gələnlər var. Onlardan bir hissəsi Biləsuvardakı qaçqın şəhərciyində yaşamışdır. Yəqin ki, mənim o şəhərciyə gəlişimi xatırlayan da var. Birinci dəfə 20 il bundan əvvəl orada olmuşam. Çalışmışıq ki, yeni mənzillər, yeni evlər tikək və təqribən 300 minə yaxın, bəlkə də çox keçmiş köçkün 2020-ci ilə qədər normal şəraitlə təmin edilmişdir. Ancaq ondan da çox insan ağır vəziyyətdə yaşamışdır. Ona görə bu gözəl binalarda yaşamaq sizin haqqınızdır, siz buna layiqsiniz. Əminəm ki, bu torpaqlarda yaşamış və oradan köçmüş, eyni zamanda, bu torpaqları heç vaxt görməmiş sizin uşaqlarınız, nəvələriniz burada rahat və xoşbəxt yaşayacaq, öz dövləti ilə, xalqı ilə həmişə fəxr edəcəkdir. Bir daha sizi təbrik edirəm.

*

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

**Sakin Şəfiqə Hüseynova:** Təşəkkür edirik Sizə. Allah canınızı sağ eləsin. Cəbrayıl şəhərciyində yaşayanların adından Sizə təşəkkür edirəm. Mən şəhid anası kimi yenə Sizə baş əyirəm. Bütün şəhid analarının əlindən öpürəm. Onlar da Sizə təşəkkür edirlər.

**Prezident İlham Əliyev:** Sağ olun!

Açarların təqdim edilməsi mərasimindən sonra çıxış edən **sakin Məhəmməd Quliyev:** Bu gözəl gündə, bu gözəl məkanda Cəbrayılımıza qovuşmuşuq. Sizə xalqımızın adından, camaatımızın adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, uzun ömür arzulayıram. Sizə də, Mehriban xanıma da dərin təşəkkürümüzü bildirirəm. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Bu günü bizə nəsib etdiyinizə görə Allah-taala Sizə bir daha uzun ömür, cansağlığı versin. Həmişə xalqımızın başı üzərində olasınız. Həmişə atanız Ulu öndərimizin yolunu belə gözəl davam etdirəsiniz. Sizə çox minnətdarıq. Sizə dərin təşəkkürümüzü bildiririk. Bizim üçün ən əziz insan, hörmətin saxladığımız insan Sizsiniz. Bizim arxamızsınız, dayağımızsınız. Allah Sizə yar olsun. Allah köməyiniz olsun. Heç vaxt xalqımızın başı üstündən əskik olmayasınız. Minnətdarıq Sizə. Çox sağ olun, çox razıyıq.

**Prezident İlham Əliyev:** Çox sağ olun!

**Sakin Bahar Ağayeva:** Hörmətli cənab Prezident, Ali Baş Komandanımız. Hörmətli Mehriban xanım. Bugünkü bu gözəl gündə, əlamətdar gündə, bizim sevincli günümüzdə bizimlə birgəsiniz. Bundan qürur duyuruq. Biz 31 ildən sonra ilk dəfə olaraq torpaqlarımıza qədəm qoymuşuq. Mən buradan çıxanda 20 yaşım var idi, tələbə idim. Artıq bu gün gəlmişik. 2020-ci ildə torpaqlar azad ediləndə biz baxırdıq, burada elə bil heç insan yaşamamışdı. Evlərimizi xarabalığa çevirmişdilər. İndi artıq baxırıq, fəxr edirik Sizinlə. Çox sağ olun ki, belə gözəl şəhərimizi abadlaşdırmısınız, bizim üçün yeni Cəbrayıl qurmusunuz. Çox sağ olun, təşəkkür edirik. Cəbrayıllılar təhsilə çox önəm verirlər, onlar üçün hava da təhsildir, su da təhsildir, qida da təhsildir. Təhsilə çox yüksək önəm verdiyinizə, mənim orta təhsil aldığım və bu gün buraya müəllim kimi qayıtdığım akademik Mehdi Mehdizadə adına məktəbi XXI əsrin bütün tələblərinə cavab verən modern bir məktəb kimi inşa etdirdiyinizə görə Sizə bütün cəbrayıllılar adından minnətdarlığımı, təşəkkürümü bildirirəm. Mehriban xanım, şəhid ailələrinə, qazi ailələrinə, şəhid analarına böyük önəm verdiyinizə, diqqət yetirdiyinizə, onların hüquqlarını qoruduğunuza görə Sizə bütün Cəbrayıl camaatı adından dərin təşəkkürümü bildirirəm.

Var olsun Azərbaycan, var olsun dövlətimiz! Azərbaycanın Bayrağı heç vaxt əyilməsin! Siz də bizim rəhbərimiz olaraq daim yaşayasınız! Allah Sizə, ailənizə cansağlığı versin! "Dəmir yumruğ"unuz həmişə möhkəm olsun! Diqqətiniz üçün təşəkkür edirəm.

**Sakin Firidun Əliyev:** Cənab Prezident, mən də öz növbəmdə istərdim Sizə təşəkkürlərimi bildirim. Çünki bizim Cəbrayıla qayıdışımızın birbaşa səbəbkarı Sizsiniz. İşğaldan azad olunmuş ərazilərdə yaradılmış infrastrukturu gördükcə adamın ürəyi açılır. Bir də Siz dediyiniz kimi, bu xarabalıqları görmək çox kədərlidir. Ancaq bu xarabalıqlara da isti ocaqları gətirənlər məhz Sizsiniz. Ona görə də Sizə xüsusi təşəkkür edirik.

Siz çıxışlarınızın birində demişdiniz ki, dünyanın görmək istəmədiyi ədaləti biz bərpa etdik. Bəli, bu ədaləti bərpa etdiyiniz üçün Sizə xüsusi təşəkkür edirəm.

Bir də məşhur bir frazanız var idi, xalq arasında geniş yayılmışdı, o frazanın da cavabı artıq var ki, Cəbrayıla yolu məhz belə çəkirlər. Sağ olun, təşəkkür edirəm, minnətdaram Sizə. Var olun!

**Prezident İlham Əliyev:** Sağ olun. Tamamilə haqlısınız, yolu belə çəkərlər. Amma Cəbrayıla o yolun çəkilişi də, əslində, bu işğalı əbədi etmək üçün göstərilən səylərin bir hissəsi idi. Ona görə Ermənistandan Cəbrayıla yeni yol çəkmək istəyirdilər ki, sonra burada məskunlaşma getsin, Ermənistana gediş-gəliş daha da asanlaşsın. Lakin bütün bu planları biz alt-üst etdik, Azərbaycan xalqı alt-üst etdi, bütün dünyaya öz iradəsini göstərdi və bizim Qələbəmiz, əlbəttə ki, xalqımız üçün, dövlətimiz üçün ən böyük nemətdir, hesab edirəm ki, Azərbaycan xalqının çoxəsrlik tarixində ən parlaq hərbi Qələbədir. Ancaq, eyni zamanda, bu Qələbə onu göstərdi ki, ədalətsizliyə qarşı mübarizə aparmaq mümkündür. Xalqda birlik olanda, güclü iradə olanda, mənəvi ruh yüksək səviyyədə olanda, sən öz köklərinə bağlı olanda və milli dəyərlərə dəyər verəndə hər şeyə qadir ola bilərsən. Bizim xalqımız bu tarixi nailiyyəti əldə etməklə, eyni zamanda, bir çox başqa yerlərdə əzab-əziyyət içində yaşayanlara da yol göstərdi ki, bunu etmək mümkündür. Ona görə bizim Qələbəmizin beynəlxalq əhəmiyyəti bundan sonra ancaq artacaq.

Bizim hərbi əməliyyatlarımızı bu gün dünyanın aparıcı hərbi məktəblərində öyrənirlər. Dəfələrlə söhbətlər əsnasında, yəni, hərbi işlərdən başı çıxan insanlarla görüşlər əsnasında, – mən xarici nümayəndələri nəzərdə tuturam, – Şuşa əməliyyatı, Hadrut əməliyyatı, digər əməliyyatlar, o cümlədən Cəbrayıl əməliyyatı, 5-6-7 müdafiə xəttinin, minalanmış və istehkamlarla təmin edilmiş o müdafiə xətlərinin hərbçilərimiz tərəfindən aşılması onlarda böyük təəccüb doğurur. İlk növbədə, əməliyyatların planlaşdırılması, əməliyyatların aparılması və eyni zamanda, sinəsini qabağa verib, gülləyə verib müdafiə xətlərini yaran bizim döyüşçülərimizin qəhrəmanlığı onlarda təəccüb doğurur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, bizi Qələbəyə aparan bizim milli ruhumuz olub.

Bütün bu amillər, deyə bilərəm ki, dünyada Azərbaycana olan hörməti bəlkə də birə on artırıb. Bu gün biz dünya miqyasında böyük hörmətə və nüfuza malik olan ölkəyik. Bu gün həm ölkə vətəndaşları və eyni zamanda, xaricdə yaşayan azərbaycanlılar başlarını dik tutublar. Dünyada milyonlarla azərbaycanlı yaşayır. Azərbaycan dilində danışan, Azərbaycan dili ana dili olan soydaşlarımızın sayı 50 milyondan çoxdur. Bu Qələbə onların da Qələbəsidir, onlar üçün də qürur mənbəyidir. Bu, əbədi belə olacaq. Biz bu torpaqlarda əbədi yaşayacağıq. Xalqımız, dövlətimiz müzəffər xalq və dövlət kimi əbədi yaşayacaq. Azad edilmiş torpaqlarda bütün buna oxşar gözəl binalar inşa edilir və ediləcək. Azərbaycanın həm Cənubi Qafqazda möhkəmlənməsi, həm daha böyük coğrafiyada önəmli ölkəyə çevrilməsi prosesi bundan sonra da uğurla gedəcək. Mən buna şübhə etmirəm, əminəm, bizim siyasətimiz bunu diktə edir, bizim potensialımız bunu göstərir. Bizim gücümüz – siyasi çəkimiz, iqtisadi qüdrətimiz, hərbi gücümüz ildən-ilə ancaq artacaq. Bunu mən tam əminliklə deyirəm. Bu yaxınlarda mən bu barədə danışmışam, nə qədər böyük səylər göstərilib ki, bizim döyüş qabiliyyətimiz daha da artsın. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi dövründə biz bütün dünyaya hərbi cəhətdən nəyə qadir olduğumuzu nümayiş etdirdik. Bilin və Azərbaycan xalqı bilsin, o vaxtdan bu günə qədər bizim hərbi qüdrətimiz daha da artıb. Əgər kimsə bizim qabağımızda durmaq fikrinə gələrsə, yenə də peşman olacaqdır.

Bu gün, eyni zamanda, şəhər günüdür və buradan orada quraşdırılmış səhnə də görünür. Bir azdan sonra sizi bayram konserti də gözləyir. İnşallah, bundan sonra bu torpaqlarda ancaq bayramları qeyd edək. Bir daha təbrik edirəm.

*

Sonda xatirə şəkilləri çəkdirildi.

***AZƏRTAC***





# Baş nazir Əli Əsədov Minskdə Azərbaycan Ticarət Evində

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov belaruslu həmkarı Roman Qolovçenkonun müşayiəti ilə oktyabrın 4-də Minskdə Azərbaycan Ticarət Evində olub.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, hökumət başçılarına Ticarət Evinin fəaliyyəti barədə məlumat verilib, Azərbaycan şirkətlərinin istehsal etdiyi və Belarus bazarına çıxarılan müxtəlif növ məhsullarla tanışlıq olub.

Sonra Azərbaycanın və Belarusun Baş nazirləri Əli Əsədovun və Roman Qolovçenkonun iştirakı ilə Azərbaycan Ticarət Evində Kəlbəcər "İstisu" mineral suyunun təqdimatı keçirilib.

Tədbir çərçivəsində Kəlbəcər "İstisu" mineral su zavodu və Belarus Respublikasında "Azərbaycan Ticarət Evi" MMC arasında əməkdaşlıq qurmaq məqsədilə niyyət protokolu imzalanıb. Əsas məqsəd "İstisu" mineral su zavodunun məhsullarının Belarusda təşviqi və satışını təmin etməkdir.

"Azərbaycan Ticarət Evi" MMC məhsulların bazarda mövqeləndirilməsi, marketinq fəaliyyəti və Belarusun hüquqi tələblərinə uyğunluq sahəsində kömək göstərəcək.

***XQ***

# “Bu, Avropada ballistik raketlərdən istifadə ilə bağlı ilk hal idi”



**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Gəncə terroru ilə bağlı paylaşım edib. H.Hacıyevin “X” hesabında edilən paylaşımda deyilir:**

“2020-ci il oktyabrın 4-də Azərbaycanın Gəncə şəhəri və onun mülki əhalisi Ermənistan tərəfindən atılan “Scud” ballistik raketləri ilə vurulub. Bu, İkinci Dünya müharibəsindən sonra Avropada ballistik raketlərdən istifadə ilə bağlı ilk hal idi. Məqsəd mülki əhali arasında kütləvi qətl və terror törətmək idi”.

***XQ***

# Astanada MDB Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının 55-ci iclası



**Astanada Müstəqil Dövlətlər Birliyi Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları Rəhbərləri Şurasının 55-ci iclası keçirilib.**

İclasda Azərbaycan, Belorus, Rusiya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan Təhlükəsizlik və Xüsusi Xidmət Orqanları rəhbərləri, həmçinin MDB İcraiyyə Komitəsinin və Antiterror Mərkəzinin nümayəndələri iştirak edib.

İclasda terrorizm və dini ekstremizmlə mübarizə sahəsində MDB ölkələrinin xüsusi xidmət orqanlarının qarşılıqlı fəaliyyətinin təkmilləşdirilməsi məsələləri ətraflı müzakirə edilib.

Tədbirdə MDB ölkələrinə giriş-çıxış məntəqələrində beynəlxalq terror təşkilatlarının üzvlərinin və digər radikal elementlərin axtarışının təşkili sahəsində əməkdaşlığın intensivləşdirilməsi üzrə tədbirlərin planı hazırlanıb. Terrorizm və ekstremizmin digər təzahürlərinə qarşı mübarizə problemlərini öyrənmək, gələcək işlərin istiqamətlərinin müəyyən olunması məsələləri də diqqət mərkəzində olub.

Qazaxıstan Prezidenti Qasımcomərd Tokayev iclas iştirakçılarını qəbul edib.

Qazaxıstan dövlətinin başçısı vurğulayıb ki, operativ və analitik məlumatların vaxtında mübadiləsi regional təhlükəsizliyə qarşı çağırış və təhdidlərə qarşı mübarizənin səmərəliliyini artırmağa imkan verir.

Q.Tokayev əmin olduğunu bildirib ki, görüşün nəticələri MDB ölkələrinin xüsusi xidmət orqanları arasında qarşılıqlı fəaliyyətin daha da inkişafına şərait yaradacaq, beynəlxalq təhlükəsizliyin təmin edilməsi sahəsində əməkdaşlığın gücləndirilməsinə kömək edəcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Astana**

# Türkiyə Ədliyyə Nazirliyi ilə Anlaşma Memorandumu imzalandı



**Ədliyyə naziri Fərid Əhmədov ölkəmizdə səfərdə olan Türkiyə Ədliyyə naziri Yılmaz Tunç ilə görüşüb.**

Fərid Əhmədov vurğulayıb ki, hüquqi sahədə də əməkdaşlığımız daim genişlənir və inkişaf edir. Bu ilin may ayında iki ölkənin ədliyyə nazirlikləri arasında imzalanmış birgə bəyanatın icrası istiqamətində görülən işlərə toxunan nazir bildirib ki, artıq probasiya sistemi, eləcə də cəzaçəkmə müəssisələrində tibb xidmətinin təşkili sahəsində əməkdaşlıq uğurla həyata keçirilir və bu istiqamətlərdə konkret nəticələr əldə edilib.

Azərbaycanda olmaqdan məmnun olduğunu bildirən Yılmaz Tunç “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ilə iki qardaş ölkə arasındakı münasibətlərin və əməkdaşlığın daha yüksək səviyyəyə qalxdığını bildirib.

Görüşdə hüquqi yardımla əlaqədar sorğuların daha çevik şəkildə göndərilməsini təmin etmək məqsədilə informasiya texnologiyaları sahəsində əməkdaşlıq, ekstradisiya və məhkumların verilməsi üzrə əməkdaşlığın səmərəliliyinin artırılması və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Görüşün sonunda Azərbaycan Ədliyyə Nazirliyi ilə Türkiyə Ədliyyə Nazirliyi arasında probasiya və penitensiar sahədə potensialın gücləndirilməsi və əməkdaşlar üçün qarşılıqlı təlimlərin təşkili sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

# Müstəqillik bəyannaməsindən imtina?

(əvvəli 1-ci səhifədə)

Bəli, istər N.Paşinyanın diqqətə çatdırdıqları, istərsə də Konstutusiya Məhkəməsinin qərarı nikbinlik yaradır. Ancaq ilk baxışdan. Çünki meydana suallar çıxır. Həmin suallar barədə söz açmazdan əvvəl deyək ki, Ermənistan SSR Ali Soveti Müstəqillik bəyannaməsini 1990-cı ilin avqustunda qəbul etmişdi. Sənəd gələcək dövlətin konturlarından ibarətdir. Bəyannamənin preambulasında, elə birinci abzasındaca Qarabağı Ermənistana birləşdirmək istəyindən danışılır. 11-ci bənddə isə 1915-ci ildə Osmanlı dövlətində yaşananlar “erməni soyqırımı” kimi təsvir olunur və qondarma soyqırımının beynəlxalq səviyyədə tanınmasına nail olmaq məramı açıqlanır. Sonradan qəbul edilmiş Ermənistan konstitusiyasının Müstəqillik bəyannaməsinə əsaslandığını isə vurğuladıq.



Qeyd edək ki, N.Paşinyan konstitusiyanın “dəyişmiş geosiyasi reallıqlara uyğun” yenilənməsi tezisini ortaya atıb. Problem ondadır, Əsas qanunun ilk maddələri yalnız referendum yolu ilə dəyişdirilə bilər və məsələ çox vaxt aparır, eyni zamanda, baha başa gəlir. Bundan əlavə, səsvermənin nəticəsini proqnozlaşdırmaq çətindir. Rəy sorğuları göstərir ki, Ermənistan sakinləri qanunları sırf azərbaycanlıları və türkləri razı salmaq üçün yenidən yazmaq istəmirlər. Belə bir şəraitdə qeyri-müəyyənlik var. Qeyri-müəyyənlik həm də ona görə var ki, erməni iqtidarının mövcud istiqamətdə, daha dəqiq desək, insanları inandırmaq naminə ictimaiyyətlə işlədiyini görmürük. Paşinyan və komandasının üzvləri yalnız quru nikbinlik mesajları irəli sürürlər, başqa heç nə. Elə isə keçək suallara.

Birincisi, Ermənistanın Konstitusiya məhkəməsinin haqqında söz açdığımız qərarı ölkə parlamenti tərəfindən təsdiqlənəcəkmi və ya necə təsdiqlənəcək? İkincisi, tutalım məhkəmə Müstəqillik bəyannaməsinin əsas qanunda yer almayan məqamlarını nəzərə almır. Ədalət instansiyasının qərarı xalqın iradəsindən üstün ola bilərmi? Əlbəttə ki, yox! Yəni, bəyannaməyə əsaslanmadan imtina mahiyyəti fundamental şəkildə təsdiqini tapmalıdır, hansısa qərarla yox. Başqa sözlə desək, məhkəmə qərarı Ermənistan konstitusiyası ilə ölkənin Müstəqillik bəyannaməsi arasındakı bağı aradan qaldıra bilməz. Axı qərara riayət mexanizmi də yoxdur. Üçüncüsü, erməni iqtidarının təmsilçiləri Azərbaycanla sülh məsələsində nikbinlik tezislərini daha çox beynəlxalq aləmə ünvanlayırlar. Təxminən belə: görürsünüz, biz Azərbaycanın tələblərini yerinə yetiririk, sülh yoluna sadiqlik və sair.

Həmçinin Ermənistan hakimiyyəti elə təsəvvür formalaşdırır ki, sanki Azərbaycan heç nə ilə razı deyil, guya, destruktiv mövqe tutur, sülhdən boyun qaçırır. Ölkə parlamentinin spikeri Alen Simonyanın münasibətində də bu məqam duyulmaqdadır. O deyib ki, hazırda sülh müqaviləsi yolu açıq olsa da, Konstitusiya məhkəməsinin qərarından sonra rəsmi Bakı narazılıq üçün yeni səbəb tapa biləcək. Deməli, hakim erməni siyasilər üçün əsas olan səmimiyyət yox, Azərbaycanın səbəb tapa bilməməsidir.

Bəli, mütərəqqilik və səmimiyyət erməni iqtidarının təmsilçilərindən çox-çox uzaq anlayışlardır. Deyimi sübuta yetirən misallar yetərincədir. Yəni, Simonyan kimilərinin manipulyativ gedişlərinə inanacaq deyilik. Digər tərəfdən, Azərbaycanın sülh üçün şərt formasında qoyduğu tələb yalnız Ermənistan konstitusiyasının dəyişdirilməsində deyil. Qeyd etdiyimiz kimi, ölkəmiz, ümumən, ölkənin dövlət sənədlərində qonşulara qarşı ərazi iddiasının aradan qaldırılmasını istəyir. Tutalım, Ermənistanın Əsas qanunu Müstəqillik bəyannaməsinə istinad etmir. Axı bəyannamə özlüyündə qalır. Bütövlükdə, bəyannamədən, yaxud onun ərazi iddiasını nəzərdə tutan müddəalarından imtina vacibdir ki, nə Paşinyan nə də onun komandasında yer alanlar məsələnin üzərinə gəlirlər.

Başqa bir yandan, məlumdur ki, 1988-ci ildə ermənilərin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinə ərazi iddiaları başlayanda Müstəqillik bəyannaməsi də, Ermənistan konstitusiyası da yox idi. Yəni ki, bu sənədlər olmadan erməni separatizmi üçün, belə demək mümkünsə, ideoloji dayaq nöqtəsi olub. Mövcud anlamda yanaşsaq, Azərbaycanın istəyi təkcə Ermənistan hakimiyyətinin deyil, eyni zamanda, bütövlükdə erməni cəmiyyətinin səmimiyyət jestinin nümayişidir. Hazırda bu jesti deyil, müxtəlif spekulyasiyaları görürük. Rəsmi İrəvan ölkəmiz qarşısında etimad qazanmaq üçün tədbirlər görmür, onun otuz illik işğala görə hansısa formada məyusluq keçirdiyi istisnadır. Əvəzində, etibarlı sülh mühitinin formalaşmasına maneçilik törətməyə hesablanmış gedişləri və bu gedişlər fonunda ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi üçün həyata keçirildiyi iddia olunan silahlanmanı görürük. Deməli, ölkəmiz Konstitusiya məhkəməsinin qərarı timsalında hansısa yarımçıq komponenti məqbul saya bilməz.

Bir məqamı da vurğulayaq ki, Ermənistan hakimiyyəti nə qədər ölkədəki müxalif kəsimə qarşı əks ritorikaya üstünlük versə də, mahiyyətcə hər iki qütb istər təfəkkür tərzi, istərsə də yanaşma baxımından bir-birindən fərqlənmir. Dəfələrlə müxalifətin qaldırdığı avantüranın Paşinyan iqtidarı üçün fəaliyyət qayəsinə çevrildiyini görmüşük. Müxalifətin təzyiqi qarşısında iqtidarın mövqeyindən geri çəkildiyini də. Yenə bunun yaşanması istisna deyil. Ancaq indi vəziyyət bir qədər fərqlidir.

Məsələ ondadır ki, müxalifər Konstitusiya məhkəməsinin qərarını “dövlət çevrilişi” adlandırıblar. Paşinyan hakimiyyətinin təmsilçiləri aktiv şəkildə məsələnin belə qoyuluşu ilə razılaşmadıqlarına dair izahat verir, əsəblərin tarıma çəkildiyi mənzərəsi yaradırlar. Bu görüntüdə məqsəd heç də gərginlik ab-havasına adekvat reaksiya vermək deyil. Erməni iqtidarı, sadəcə, çətin durumun imitasiyası ilə məşğuldur. İmitasiya ona Konstitusiya Məhkəməsinin qərarının, guya, Azərbaycanın tələbinin yerinə yetirilməsi baxımından vacibliyi ab-havasının mövcudluğu üçün lazımdır. Yəni, Paşinyan iqtidarı istəyir ki, mənzərəyə baxıb aldanaq. Hesab edək ki, Ermənistanı əsaslı güzəştə məcbur etdik.

Təkrarən bildirək ki, hazırkı durumda ortada rəsmi İrəvanın avantürizmdən uzaqlaşması ilə bağlı gerçək addım yoxdur. Bu baxımdan Prezident İlham Əliyevin Bakıda keçirilmiş “İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi” mövzusunda beynəlxalq konfransın iştirakçılarına məktubundakı bir məqamın üzərində dayanaraq yazımızı tamamlayaq: “Ermənistan öz destruktiv mövqeyindən əl çəkməli və beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərini yerinə yetirməlidir. Əgər Ermənistan, həqiqətən də, Azərbaycanla sülhə nail olmaq istəyirsə, onda əsir və girov götürülmüş azərbaycanlılara münasibətdə törədilmiş vəhşilikləri qətiyyətlə pisləməli və günahkarları cəzalandırmalıdır. Bu, həmçinin iki ölkə arasında təsirli etimad quruculuğu tədbirlərindən biri ola bilər”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Kanak həmrəyliyi davam edir”

**Fransa koloniyasında həbsdə olan fəalları dəstəkləmək üçün müxtəlif həmrəylik aksiyalarının davamı olaraq və 20 sentyabrda Lyon Məhkəməsində başlayan silsilə dindirmələrə cavab olaraq Fransanın müxtəlif şəhərlərində, Kataloniyada, Sakit Okean hövzəsində, eləcə də Antil adalarında həmrəylik ifadə edən qardaş və bacılara Yeni Kaledoniyalı Siyasi Məhbuslara Dəstək Cəbhəsi öz təşəkkürünü ifadə edir.**



Kollektiv bir neçə ay ərzində məlumatlılığın artırılması və informasiya məkanlarının təşkilinə qoyulan səylər çərçivəsində "Kanak həmrəyliyi" kollektivi və Fransanın Kanak hərəkatı tərəfindən görülən mühüm işləri yüksək qiymətləndirir.

“Xüsusilə işimizin qurulmasında mühüm dəstəyə görə Solidarita Assosiasiyasına və EH Bai-yə, eləcə də siyasi məhbus ailələrinə göstərdiyi dəstəyə görə Bakı Təşəbbüs Qrupuna təşəkkürümüzü bildiririk”.

***XQ***

Naxçıvan müqaviləsi – 15

# TDƏŞ-dən TDT-yə, Naxçıvandan Turana doğru



(əvvəli 1-ci səhifədə)

Hamının yadındadır. Bu il iyulun 6-da Şuşada Türk Dövlətləri Təşkilatı dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev demişdi ki, TDT dünya miqyasında güc mərkəzlərinin birinə çevrilməlidir: "Biz böyük coğrafi məkanı əhatə edirik, üzv ölkələrdə müsbət demoqrafik dinamika müşahidə olunur, hərbi potensialımız döyüş meydanlarında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii resurslarımız, onların nəqli üçün müasir infrastruktur, Mərkəzi Asiyanı, Qafqazı Aralıq və Qara dəniz limanları ilə birləşdirən nəqliyyat dəhlizləri, zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır".

Xatırladaq ki, cənab Rəcəb Tayyib Ərdoğanla Azərbaycan Prezidenti İlham Əlityev Azərbaycan və Türkiyənin rəsmi müttəfiqliyinin əsasını qoyan Şuşa Bəyannaməsini 2021-ci il iyunun 15-də məhz Şuşada imzalamışdılar. TDT üzvü olan ölkələrin rəhbərləri də Qarabağ Bəyannaməsini məhz Şuşada – 2024-cü il iyulun 6-da imzaladılar.

Onu da əlavə edək ki, türk dövlətlərinin rəhbərlərinin Azərbaycanın işğaldan azad edilmiş torpaqlarına səfərləri qardaşlıq həmrəyliyinin təzahürüdür. Türkiyə Prezidenti Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla, Özbəkistan və Qazaxıstan prezidentləri Şuşa və Füzuliyə, Qırğızıstan Prezidenti isə Füzuli və Ağdama səfərlər ediblər.

Bu gün artıq Türk Dövlətləri Təşkilatı kimi özünəməxsus nüfuz və güc qazanan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının təşkilinin 15-ci il dönümündə xatırlatmalıyıq ki, TDƏŞ 2009-cu il oktyabrın 3-də Naxçıvanda yaradılmışdır. Çünki gənc müstəqil Azərbaycanın dostluq və əməkdaşlıq etdiyi ünvanlar arasında türkdilli dövlətlərlə münasibətlərin xüsusi çəkisi var. Sevindirici haldır ki, rəsmi Bakı türkdilli ölkələrin hamısı ilə dərin və səmərəli əməkdaşlıq etməklə yanaşı, bu dövlətlərin birliyi olan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) fəaliyyətində də kifayət qədər fəal iştirak edir və səmərəli təkliflərlə, təşəbbüslərlə birliyin perspektivinə öz töhfələrini verir. Təşkilatın təsisçiləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyədir. Qeyd etmək vacibdir ki, məhz Naxçıvan Zirvə görüşü Türk dünyasının birgə tərəqqisi baxımından olduqca mühümdür. Çünki həmin görüşdən sonra Türk Akademiyası, Türk Əməkdaşlıq Şurası, Türk Miras Fondu, Türk Ağsaqqallar Şurası kimi təşkilatlar yaranmışdı.

Naxçıvan Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyev sammiti əlamətdar hadisə kimi dəyərləndirmiş və əmin olduğunu bildirmişdi ki, görüşün nəticələri faydalı olacaq, çox səmərəli işləyəcəyik və qəbul ediləcək qərarlar bizim birliyimizi daha da gücləndirəcəkdir. Türkdilli dövlətlər arasında əlaqələrin ikitərəfli formatda çox yüksək səviyyədə olduğunu məmnunluqla xatırladan Prezident İlham Əliyev əlavə etmişdi ki, BMT-də, İslam Konfransı Təşkilatında, ATƏT-də və digər təşkilatlarda ölkələrimiz bir-birinə həmişə dəstək verir və bu, belə də olmalıdır: "Çünki, bizi müştərək tarix birləşdirir, tarixi-mədəni köklər birləşdirir".

Xüsusilə vurğulanmalı məqamlardan biri də odur ki, bu formatın yaradılmasından əvvəl türkdilli dövlətlər Türk Şurası adlı beynəlxalq qurum çərçivəsində əməkdaşlıq edirdilər. Həmin şura 1992-ci ildən etibarən keçirilən türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşlərindən qaynaqlanan ümumi siyasi iradənin nəticəsi olaraq yaranmışdı.

Qurumun əsas məramları və hədəfləri bütün türk dövlətlərinin maraqlarını əhatə edir. Həmin maraqlara daimi fəaliyyət göstərən katibliyi, Türk dünyasının ortaq əlifbasını, ortaq "Türk tarixi" kitabını və antologiyasını yaratmaq, türk ləhçələrinin qarşılıqlı lüğətini hazırlamaq, müştərək Türk Tarixi İnstitutunu təşkil etmək, Türk dünyasını bir-birinə bağlayacaq enerji siyasətini həyata keçirmək, İstanbul–Almatı dəmir yolu xətti layihəsini reallaşdırmaq və Türk dünyasının nəqliyyat şəbəkəsinə Bişkeki də qoşmaq, Bakı–Tbilisi–Qars dəmir yolunun inşasına dəstəyi artırmaq, İpək yolunun real olaraq canlandırılması, təhsil nazirlikləri və universitetlər arasında əməkdaşlığı ən yüksək səviyyəyə qaldırmaq, qarşılıqlı təqaüdlü tələbə və şagird mübadiləsini həyata keçirmək və sair daxildir.

Bu qurumun beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etmək istəyi də öz müsbət nəticələrini verməkdədir. Belə ki, artıq İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, ATƏT, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi, BMT, Ümumdünya Turizm Təşkilatı və digər instansiyalarla əlaqələr qurulmuşdur.

Bu il iyulun 6-da Şuşada imzalanmış "Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşünün Qarabağ Bəyannaməsi" adlı sənəddə Türk dünyasını regionda və dünyada sülh, təhlükəsizlik, sabitlik, inkişaf və tərəqqi ideyalarına sadiq olan türk xalqlarının ortaq etnik köklər, tarix, dil, mədəniyyət, ənənələr və dəyərlərinə söykənən ailə olduğunu hesab edərək, türk xalqlarının qitə miqyasında töhfələrini, qlobal siyasət, iqtisadiyyat və sivilizasiyaların inkişafında oynadığı rolu, bəşəriyyət tarixində siyasi, iqtisadi nailiyyətlərini nəzərə alaraq, birgə fəaliyyətin istiqamətləri göstərilir.

O da əlavə edilir ki, tərəflər 2024-cü il noyabrın 11-22-də Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etməkdə Azərbaycan Respublikası hökumətinə uğurlar arzulayır və konvensiyanın tərəflərinin gözləntiləri əsasında COP29-un konkret nəticələrinin əldə edilməsində Azərbaycanın ardıcıl səylərini dəstəkləyirlər.

Uğur olsun! Əminik ki, TDT-nin Turana gedən yoldakı daha böyük uğurları hələ qabaqdadır.

*İttifaq MİRZƏBƏYLİ,*
*Əməkdar jurnalist*

## TDT Müsəlman Dini İdarə rəhbərləri Şurasının V iclası



**Astanada Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə rəhbərləri Şurasının V iclası keçirilib.**

Tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Qazaxıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Naurızbay Kajı Taqanulı, Türkiyə Dini İşlər İdarəsinin sədri Əli Erbaş, Özbəkistan Müsəlmanları Ruhani İdarəsinin sədri Şeyx Nuriddin Xoliknazar, Qırğızıstan Müsəlmanları Ruhani İdarəsinin sədri Əbdüləziz kajı Zakirov, həm-



çinin Türk Dövlətləri Təşkilatı baş katibinin müavini Mirvahid Əzimov, din alimləri, imamlar, KİV nümayəndələri iştirak ediblər.

Xatırladırıq ki, MDİRŞ-in Əsasnaməsi Şuşa şəhərində imzalanıb, orada Birgə Bəyanat qəbul olunub. Astanada baş tutan tədbirdə isə Şuşada qəbul edilən sənədlərin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Allahşükür Paşazadə "Xoca Əhməd Yəsəvi irsi və təsəvvüf elmi" mövzusunda keçirilən konfransa və "Türk dünyası, Fətva metodologiyası və xüsusiyyətləri" adlı dəyirmi masaya da qatılıb. İclasda "İslam yerli əhalinin adət-ənənələrini dəstəkləyir" və "Fətva verilməsinə dair fiqh məktəbinin qaydaları" sənədləri də qəbul olunub.

*Q.KAZIMOV*
*XQ*

# Paşinyan Parisə təlimata gedib

**Ermənistanın baş naziri Nikol Paşinyan son vaxtlar Qərb ölkələrinin paytaxtlarına tez-tez rəsmi və işgüzar səfərlər edir. Paşinyan və hökumətinin üzvləri Qərbdə keçirilən heç bir tədbiri qaçırmırlar. Qərbə getmək üçün ələ düşən hər fürsətdən yararlanırlar.**



Məsələn, Nikol mayın 14-də Danimarkaya işgüzar səfər etmişdi. İki ay sonra – iyulun 14-də UEFA Avropa Çempionatının final oyununu izləmək üçün Berlinə getmişdi. O, ənənəsinə sadiq qalaraq, şəhərin küçələrində velosiped sürmüş, insanlarla şəkil çəkdirmiş, həyat yoldaşı ilə birgə alış-veriş etmiş və muzeyə bilet almaq üçün növbəyə durmuşdu. Bununla özünün də avropalılardan biri olduğunu nümayiş etdirməyə və onların rəğbətini qazanmağa çalışmışdı. Sentyabrın sonlarında Ermənistan baş naziri BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirak məqsədilə ABŞ-nin Nyu-York şəhərində işgüzar səfərdə olmuşdu. Oktyabrın 1-də isə ölkənin xarici işlər naziri Ararat Mirzoyan ATƏT-in İnsan ölçüsü üzrə Varşava Konfransında iştirak etmiş, orada Rusiyanın ünvanına ciddi tənqidlər səsləndirmişdi.

Halbuki, Paşinyan başda olmaqla, Ermənistan hökumətinin üzvləri Rusiyanın təşəbbüsü ilə keçirilən tədbirləri boykot etmək yolunu tutublar. Hətta, Paşinyan faşizm üzərində qələbənin 79-cu ildönümü münasibətilə Moskvada keçirilən paradda iştirakdan da imtina etmişdi. Maraqlıdır ki, Paşinyan Rusiya ilə müxtəlif platformalarda iqtisadi əməkdaşlığı genişləndirir. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi xeyli artıb. Siyasi münasibətlərdə isə İrəvan Moskva ilə ciddi şəkildə məsafə saxlayır. Bir müddət öncə Rusiyanın nüvəsində dayandığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını maliyyələşdirməyəcəyini bildirən N.Paşinyan ötən ay bəyanatlarında daha da irəli gedərək, KTMT-nin Ermənistanın təhlükəsizliyinə, mövcudluğuna və suverenliyinə təhdidlər yaratdığını bildirdi. Baş nazir ümumermənі forumunda çıxışı zamanı dedi: "Biz KTMT-yə üzvlüyümüzü təkcə ona görə dondurmamışıq ki, KTMT Ermənistanın təhlükəsizliyini təmin etmək üzrə öz öhdəliklərini yerinə yetirmir. Həm də ona görə ki, dondurmuşuq ki, təşkilat Ermənistanın təhlükəsizliyinə, onun gələcək mövcudluğuna, suverenliyinə və dövlətçiliyinə təhdidlər yaradır". Paşinyan Ermənistanın KTMT ilə münasibətlərdə "geri dönüşü olmayan nöqtəyə" yaxın olduğunu vurğulamışdı.

Nəhayət, Qərbə səfərlər silsiləsindən hələlik sonuncu dayanacaq Paris olub. Nikol oktyabrın 3-də Fransa paytaxtına işgüzar səfər edib. O, səfər çərçivəsində Yelisey sarayında Fransa prezidenti Emmanuel Makronla görüşüb. Görüşlə bağlı Ermənistan hökumətinin yaydığı məlumatda bildirilib ki, həmsöhbətlər Ermənistan–Fransa çoxşaxəli gündəliyinə aid məsələləri müzakirə edib, dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsinə yönəlmiş ardıcıl addımların davamlı şəkildə həyata keçirilməsinin vacibliyi vurğulanıb. Məlumatda deyilir: "Paşinyan dost Fransanın daimi dəstəyinin vacibliyini və Ermənistanın ikitərəfli əlaqələrin bütün sahələrinin inkişafına yönəlmiş addımlar atmağa hazır olduğunu bildirib".

Fransa prezidenti isə Ermənistanı qeyd-şərtsiz dəstəklədiyini, həmçinin ölkəsi ilə Ermənistan arasında ikitərəfli münasibətlərin ardıcıl inkişafına hazır olduğunu təsdiqləyib.

Ermənistanın baş naziri Azərbaycanla sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında ikitərəfli saziş layihəsinin müzakirəsinin nəticələrinə toxunaraq qeyd edib ki, layihənin bəndlərinin 80 faizi razılaşdırılıb və İrəvan bu əsasda saziş imzalamağa, sonra isə əlavə müzakirələri davam etdirməyə hazırdır. Paşinyan daha sonra özünü, necə deyərlər, "sülh göyərçini" kimi göstərməyə cəhd edib. O, regionda sülh və sabitliyin təmin edilməsi istiqamətində atılan addımların vacibliyini vurğulayaraq, sazişin imzalanmasının bu problemin həllinə kömək edəcəyinə əminliyini bildirib.

Görüşdə Ermənistan hökumətinin "Sülhün kəsişməsi" layihəsi ilə bağlı məsələlər də müzakirə olunub. Paşinyan vurğulayıb ki, ölkəsi suverenlik, yurisdiksiya, qarşılıqlılıq və bərabərlik prinsipləri əsasında regional kommunikasiyaları açmağa hazırdır.

Emmanuel Makron isə Ermənistanı və onun hökumətinin sülh və sabitliyə yönəlmiş addımlarını (?) dəstəklədiyini, eyni zamanda, "Sülhün kəsişməsi" layihəsini alqışladığını bildirib.

Tərəflər Ermənistan–Avropa İttifaqı əməkdaşlığı məsələlərini də müzakirə ediblər. N.Paşinyan qeyd edib ki, İrəvan Ermənistanla Aİ arasında əməkdaşlıq məsələsində dost Fransanın gələcək dəstəyinə ümid edir. O, həmçinin Aİ-nin Ermənistandakı missiyasının rolunu yüksək qiymətləndirib. Paşinyan Fransanın Aİ ilə viza rejiminin liberallaşdırılması üzrə dialoqun başlanmasında və Avropa Sülh Fondu çərçivəsində Ermənistana yardım göstərməsində mühüm rolunu vurğulayıb.

N.Paşinyan fransız həmkarı Mişel Barnye ilə də görüşüb. Ermənistan baş naziri Beynəlxalq Frankofoniya Təşkilatının növbəti sammitində də iştirak edəcək. Son vaxtlar Azərbaycana qarşı əsassız ittihamlar irəli sürən Kanada da Beynəlxalq Frankofoniya Təşkilatında təmsil olunur. Kanada Xarici İşlər Nazirliyi tərəfindən vaxtaşırı Ermənistan–Azərbaycan münasibətləri barədə bəyanatlar verilir. Rəsmi Ottava tez-tez vəziyyəti gərginləşdirən təşəbbüslərlə çıxış edir. Bu da maraqlıdır ki, Ermənistan fransızdilli ölkə olmamasına rəğmən bu təşkilatın yeganə üzvüdür. 2018-ci ilin oktyabrında İrəvanda Beynəlxalq Frankofoniya Təşkilatının XVII sammiti keçirilmişdi. Sammitdə Kanadanın baş naziri Castin Trüdo və Fransa prezidenti Emmanuel Makron da iştirak etmişdilər.

Ermənistan və Fransa Beynəlxalq Frankofoniya Təşkilatını qatı anti-Azərbaycan platformasına çevirmək cəhdlərini davam etdirirlər. Yada salaq ki, təşkilatın baş katibi bir müddət öncə İrəvanda olarkən anti-Azərbaycan ruhlu açıqlamalar vermişdi. Qarabağda erməni mədəni irsinin qorunmasının vacibliyini qabardan baş katibin Ermənistanda Azərbaycan xalqına mənsub olan mədəni irsin acınacaqlı vəziyyətinə toxunmaması isə açıq-aşkar qərəz və ikili standartların təzahürü kimi qiymətləndirilməlidir. İndi Paşinyanın belə bir təşkilatın sammitində iştirakı regionda sülh və sabitlik üçün yaxşı heç nə vəd edə bilməz.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov** mövzu



ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, Beynəlxalq Frankofoniya Təşkilatının əsas məqsədi fransız dilini və mədəniyyətini dünyada təbliğ etməkdən ibarətdir. Ermənistanın isə bu təşkilata heç bir aidiyyəti yoxdur: "Ermənistanı və onun baş nazirini təşkilata dəvət edən Fransa Prezidenti Emmanuel Makrondur. Təbii ki, səfər zamanı keçirilən görüşlərdə Ermənistana siyasi dəstəyin verilməsi, eyni zamanda, təbii ki, hərbi-texniki yardım göstərilməsi də gündəmdə olub və olacaq. Çünki həm Fransa, həm də Kanada bu yolda bir neçə addım atıb. Fransa İrəvanı hərbi texnika ilə təmin edir, Kanada isə Avropa İttifaqının Ermənistandakı mülki müşahidə missiyasına qoşulub. Faktiki olaraq, Avropaya heç bir aidiyyəti olmayan bir ölkə Avropa müşahidəçisinə çevrilib".

F.Sadıxov N.Paşinyanın səfəri zamanı hərbi-texniki əməkdaşlıq məsələsinin də gündəmdə olduğuna şübhə etmədiyini dedi: "Amma əgər onlar bununla bizi qorxutmaq istəyirlərsə, yanılırlar. Çünki əgər silahlanmadan söhbət gedirsə, bu istiqamətdə bizim də kifayət qədər geniş imkanlarımız var. Bizim siyasətimiz də kifayət qədər prinsipial və qətidir. Bizim heç bir ölkənin torpaqlarına iddiamız yoxdur. Bunu dəfələrlə bəyan etmişik. Sadəcə, əsas məqsədimiz regionda sülh yaratmaq və Ermənistanla sülh sazişi imzalamaqdır. İrəvan bu istiqamətdə normal addım atmadıqca, təqsir onların üzərində qalacaq. Məsələ ilə bağlı bizim mövqeyimiz kifayət qədər aydın və şəffafdır. Düşünmürəm ki, Beynəlxalq Frankofoniya Təşkilatı bu məsələdə Ermənistana, onun baş nazirinə hansısa ciddi yardım və dəstək verə bilsin".

**Politoloq Yeganə Hacıyeva** isə dedi ki, Fransa 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın öz gücü hesabına regionda formalaşdırdığı reallıqların dəyişdirilməsi istiqamətində müəyyən addımlar atır. Onun sözlərinə görə, Paris bunun üçün müəyyən platformalar axtarır: "Fransa rəhbərliyinin siyasi, QHT, media sektoru sahəsində təsir dairəsində olan bütün platformalarda Azərbaycana qarşı "xaç yürüşü" var. Burada məsələnin yarısının arxasında Fransa daxilindəki lobbi qruplarının sifarişləri, digər yarısı isə Parisin Cənubi Qafqazdakı maraqları dayanır. Burada söhbət təkcə Cənubi Qafqazdan getmir. Çünki Cənubi Qafqaz çox böyük regionda, Şimal–Cənub, Şərq–Qərb daşımalarında həlledicidir. Fransa belə strateji regionda özünün maraqları naminə mövcud regional təhlükəsizlik arxitekturasını demontaj edir və yenisini formalaşdırmağa çalışır. Qeyd etmək lazımdır ki, Fransa bu məsələdə tək deyil. Bir sıra Qərb ölkələri də onunla əlbirdir. Bu mənada Parisin regionda fransız lisenziyalı silahların satışından tutmuş Ermənistana hədiyyə edilmiş hücum silahlarının çatdırılmasındək uzunmüddətli perspektivdə regionda risklər formalaşdırdığı ilk gündən səslənmişdi".

Y.Hacıyeva qeyd etdi ki, artıq bu risklərin üzərinə digər faktorlar da əlavə olunmaqdadır. Nəzərə almaq lazımdır ki, İranla bağlı regionda narahatlıqlar var. Avropa İttifaqının mülki missiya adı altında Cənubi Qafqaza yerləşmiş yarımhərbi qrupu artıq regionda fərqli funksiya yerinə yetirməkdədir. Bu funksiya region ölkələrinin heç də ürəyincə deyil. Konkret olaraq Paşinyanın indiki həssas mərhələdə Fransaya səfəri regionda baş verənlərin Parislə dəyərləndirilməsi və uzlaşdırılması məqsədini daşıyır. Güman etmək olar ki, Paşinyan



Parisdən birbaşa tapşırıq və təlimat almağa gedib: "Onu da deyim ki, Fransanın Ermənistanı istifadə etməsi, orada yerləşməsi ölkəni ciddi risklərlə üz-üzə qoyub. Üstəlik, burada ABŞ-nin, Kanadanın və Rusiyanın 102 saylı bazasının mövcudluğunu nəzərə alsaq, Ermənistan ərazisinin kənar qüvvələrin hərbi mövcudluğu üçün spesifik qıcıqlandırıcı platformaya çevrildiyini söyləyə bilərik".

Müsahibimizin fikrincə, bu platformada nə vaxtsa bu qrupların bir-biri ilə bağlı fərqli ssenarisinin olmayacağı əminliyi heç kimdə yoxdur. Yəni, Kanadanın, Fransanın və ABŞ-nin Ermənistandakı hərbi qruplarının Rusiya ilə toqquşmayacağı riski heç kimdə yoxdur. Bu, Ermənistanı ciddi risklərlə üz-üzə qoyur: "Ciddi risklər qoyması Ermənistanda suallar yaradır. Paşinyan isə bu sualların aydınlaşdırılması, həm də Fransadan yeni dəstək əldə etməsi üçün Parisə yollanıb. Yekun olaraq qeyd etməliyəm ki, səfərin arxasında birmənalı olaraq Ermənistanın gələcəyi ilə bağlı Paşinyanın narahatlığı və özünümüdafiə məqsədi dayanır".

*Səxavət HƏMİD*
*XQ*

Naxçıvan müqaviləsi – 15

# Türk Dövlətləri Təşkilatı ilk addımını Naxçıvandan atıb



**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Naxçıvan Dövlət Universitetində "Naxçıvan müqaviləsinin 15-ci ildönümündə Türk Dövlətləri Təşkilatı" mövzusunda konfrans keçirilib.**

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu siyasi-ideoloji fəaliyyətin mühüm istiqamətlərindən biri də türk dünyasının birliyidir. Ulu öndər 1990–1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə bu istiqamətdə qərarlar qəbul edib, qardaş Türkiyə ilə əlaqələrin qurulmasına xüsusi önəm verib. Türk dövlətlərinin institusional strukturunun formalaşması təşəbbüsünün müəllifi Azərbaycan Prezidenti İlham Əliyev, tarixi ideyanın rəsmiləşdirildiyi ünvan isə bu coğrafriyanın birləşdirici məkanı Naxçıvan olub.

Səlahiyyətli nümayəndə daha sonra qeyd edib ki, 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşünün Naxçıvanda keçirilməsi və "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"nin imzalanması mühüm tarixi-siyasi əhəmiyyətə malikdir. Ötən dövrdə türkdilli dövlətlər arasında əməkdaşlığın müxtəlif formalarda inkişafına nail olunub, bütövlükdə, türk dünyası dövlətləri arasında inteqrasiya sürətləndirilib. 44 günlük Vətən müharibəsində tarixi Qələbəmizin və bunun ən mühüm nəticələrindən biri olan Zəngəzur dəhlizinin açılması perspektivində görülən işlər həm də Türk dünyasının coğrafi biriliyini təmin etmək yolunda atılmış ikinci addımdır.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi idarə heyətinin sədri Fərid Şəfiyev çıxışında ortaq türk dünyası ideyasının XIX əsrdə formalaşdığını, praktik addımlar isə 1990-cı illərdə atılaraq, əvvəl zirvə görüşü təşkil olunub, sonra Naxçıvanda Türk Şurası elan edilib və nəhayət, Türk Dövlətləri Təşkilatı yaradılıb. Hazırda təşkilatın İstanbulda baş qərargahı, Astana, Bakı, Daşkənd və digər şəhərlərdə təşkilata bağlı olan qurumlar fəaliyyət göstərir. Bu fəaliyyət bundan sonra daha da genişlənəcək.

Türk Dövlətləri Təşkilatı baş katibinin nümayəndəsi Muradcan Mustafayev Naxçıvan müqaviləsinin 15 illiyi münasibətilə təbriklərini çatdırıb, bu tədbirin türk coğrafiyasında əsas körpü rolunu oynayan Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyətinə toxunub.

Konfransda qeyd edilib ki, strateji baxımdan Şərqlə Qərbin, Şimalla Cənubun qovşağında yerləşən, 170 milyona yaxın əhalisi olan türk regionu qarşılıqlı ticarət və iqtisadi əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar açır. 2023-cü ildə Türk Dövlətləri Təşkilatı iqtisadiyyatının ÜDM-i əvvəlki illə müqayisədə 18 faiz artaraq, təxminən, 2 trilyon ABŞ dollarına çatıb.

44 günlük Vətən müharibəsində tarixi Qələbəmizin və bunun ən mühüm nəticələrindən biri olan Zəngəzur dəhlizinin açılması perspektivində görülən işlər həm də Türk dünyasının coğrafi birliyini təmin etmək yolunda atılmış ikinci addımdır.

Konfransda Naxçıvan televiziyasının hazırladığı türk dövlətləri birliyinin inkişafını və əhəmiyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

Məclis "Türk Dövlətləri Təşkilatı coğrafiyasında geosiyasi dəyişikliklər və Türk Dövlətləri Təşkilatı", "Təhlükəsizlik sahəsində əməkdaşlıq", "İqtisadi və ticarət əlaqələri" və "Enerji və nəqliyyat sahəsində əməkdaşlıq" mövzularında panel iclasları ilə davam edib.

# Regional medianın inkişafına dəstək




**Dünən Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə Naxçıvanda "Regional medianın inkişafı" layihəsi çərçivəsində müzakirə keçirilib.**

Məclisi giriş nitqi ilə açan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, muxtar diyarda media subyektləri və təmsilçilərinin müasir çağırışlara uyğun fəaliyyət göstərməsi, çağdaş yanaşmaların gerçəkləşdirilməsi üçün geniş şərait yaradılıb. O, üstün maddi-texniki baza yaradılması, jurnalist kadrlar hazırlanması, sağlam strukturun formalaşdırılması, obyektivlik, kreativlik baxımından Naxçıvan mediasının uğurlarını diqqətə çatdırıb.

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov dövlətin media siyasətinin əsas yönlərini şərh edərək qeyd edib ki, rəhbərlik etdiyi qurum peşəkar mütəxəssislər hazırlanması, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin fəaliyyətinin stimullaşdırılması istiqamətində çoxşaxəli tədbirlər reallaşdırır. Natiq region mediası üçün dayanıqlı inkişaf mexanizmlərinin formalaşdırılması, media subyektlərinin cari vəziyyətinin qiymətləndirilməsi və inkişaf proqramlarının hazırlanması məqsədilə icra edilən "Regional medianın inkişafı" layihəsinin ilk dəfə Naxçıvanda həyata keçirildiyini söyləyib. İcraçı direktor Naxçıvanın çoxillik tarixi ənənələri olan media subyektlərinin müasir trendlərə, innovativ tətbiqlərə qoşulmasının, beynəlxalq səviyyədə tərəqqisinin vacibliyini vurğulayıb.

Audiovizual Şuranın üzvü Bəxtiyar Balakişiyev çıxış edərək region mediasında yeniliklərin tətbiqi məqsədilə görülən işlərin ümumilikdə, ölkə mediasının inkişafına xidmət etdiyini bildirib. O, bu addımların regionlarda informasiya mühitinin zənginləşməsinə, media qurumlarının peşəkarlıq səviyyəsinin yüksəlməsinə və daha etibarlı məlumat axınının təmin edilməsinə səbəb olduğunu qeyd edib.

Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid isə regional medianın inkişafı istiqamətində MEDİA Agentliyinin və Azərbaycan Mətbuat Şurasının birgə fəaliyyətinin önəmindən söz açıb. MŞ sədri region mediasının müasir standartlara uyğun infrastrukturunun formalaşmasının, əhalinin informasiyaya əlçatanlığının təmin edilməsinin və xalqın ictimai-siyasi, mədəni-tarixi cəhətdən maarifləndirilməsinin, jurnalistikada davamlı inkişafın təşviqinin vacibliyini nəzərə çatdırıb.

Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərova muxtar diyarda medianın ümumi mənzərəsi və inkişaf tendensiyası, yerli media subyektlərinin və nümayəndələrinin fəaliyyəti, onların ehtiyaclarının müəyyənləşdirilməsi ilə bağlı aparılan sorğuların nəticələrinə dair təqdimatla çıxış edib.

Sonra keçirilən sorğuların nəticələri ilə bağlı Naxçıvan media nümayəndələri ilə müzakirələr aparılıb, onları maraqlandıran məsələlərə aydınlıq gətirilib.

# "KOB Fest" özəl fəaliyyəti təşviq edir

**KOBİA-nın təşkilatçılığı ilə Naxçıvan şəhərindəki "Əcəmi seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksində "KOB Fest"in açılış mərasimi keçirilib.**



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, dövlət başçısının tapşırıqlarına uyğun olaraq muxtar diyarda da özəl sektora qayğı göstərilir. Muxtar Respublikanın sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün dövlət proqramında əlverişli biznes mühitinin yaradılması, mikro, kiçik və orta biznesin dəstəklənməsi istiqamətində fəaliyyətin genişləndirilməsi, KOB dostu ofislərinin yaradılması, sahibkarlara güzəştli kreditlərin verilməsi, zəmanət və digər dəstək mexanizmlərinin tətbiq olunması nəzərdə tutulur. Ərazidə gömrük güzəşti nəzərdə tutan xüsusi rejimin yaradılması və ixraca logistik dəstək verilməsi istiqamətində də işlər aparılır.



Səlahiyyətli nümayəndə daha sonra qeyd edib ki, 2024-cü ilin yanvar-avqust aylarında muxtar respublikada fəaliyyət göstərən bank və bank olmayan kredit təşkilatları tərəfindən sahibkarlığın inkişafı məqsədilə 52 milyon manatdan artıq kredit verilib. Bunun 43 milyon manatdan çoxu KOB subyektlərinin inkişafına yönəldilib. İndiki festival isə KOB subyektlərinə istehsal etdiyi məhsul və xidmətlərin tanıdılması və satış imkanlarının artırılması, ən əsası isə kiçik sahibkarlığın inkişafına dəstək verilməsi işində yeni hədəflər müəyyənləşdirəcək.

KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Naxçıvanda ilk dəfə "KOB Fest"in keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirərək qeyd edib ki, məqsəd sahibkarların məhsullarını geniş kütləyə təqdim etməsinə şərait yaratmaqdır. Vurğulanıb ki, Naxçıvanda sahibkarlıq fəaliyyəti üçün tam münbit şərait vardır. Artıq KOBİA-nın dəstək və xidmətləri Naxçıvan sahibkarları üçün daha əlçatandır. Naxçıvanda KOB İnkişaf Mərkəzi və KOB dostları fəaliyyət göstərir. Naxçıvan sahibkarları KOB dostları ilə aktiv əməkdaşlıq edərək fəaliyyət imkanlarını daha da genişləndirirlər. Bu gün keçirilən festival da məhz bu imkanların nəticəsidir.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Abbas İsmayılov qeyd edib ki, hazırda muxtar respublikanın bütün şəhər və rayonlarını əhatə edən 19 min 729 mikro, 309 kiçik və 91 orta sahibkarlıq subyekti olmaqla, ümumilikdə, 20 min129 aktiv KOB subyekti fəaliyyət göstərir. Bu da ilin əvvəli ilə müqayisədə 57,3 faiz çoxdur.

Sonra "KOB Fest"in sərgi-satış yarmarkası ilə tanışlıq olub. Məlumat verilib ki, yarmarkada 70-dən artıq mikro və kiçik sahibkarlıq subyektinin məhsul və xidmətləri nümayiş olunur. Festivalda muxtar respublika ilə yanaşı, ölkəmizin digər regionlarında fəaliyyət göstərən 20-dən artıq sahibkarlıq subyekti də iştirak edir.

"KOB FEST" çərçivəsində bədii-əyləncəli proqram da təşkil olunub.

# Tarixi kitabların təqdimatı



**AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yeni tarixi nəşrlərin təqdimat tədbirində bildirib ki, bugünədək "Şərur rayonunun tarixi", "Culfa rayonunun tarixi", "Ordubad rayonunun tarixi", "Kəngərli rayonunun tarixi" və "Sədərək rayonunun tarixi" kitabları bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu əməkdaşlarının ortaya qoyduqları sanballı əsərlərdir.**

Hər bir əsər ayrı-ayrılıqda sistemli aparılmış tədqiqat işi olmaqla yanaşı, AMEA Naxçıvan Bölməsinin fəaliyyətinin əsasını təşkil edən Naxçıvan tarixinin öyrənilməsinə xidmət edir.

Təqdim olunan kitabların əhatə etdiyi mövzular, müəlliflərin ortaya qoyduqları araşdırmaların əhatəliliyindən danışan akademik çıxışının sonunda müəllifləri təbrik edib, onlara yeni uğurlar arzulayıb.

# Ekoloji infosessiya



**Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində BMT-nin İqlim Dəyişikliyi Çərçivə Konvensiyasının illik konfransının 29-cu sessiyası ilə bağlı infosessiya keçirilib.**

İnfosessiyada xidmətin mütəxəssisləri iştirak ediblər. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəis müavini Məhərrəm Abbasov iqlim böhranının qlobal miqyasda təsirlərindən danışaraq COP29-un bu istiqamətdə atılacaq yeni addımlar üçün həlledici rol oynayacağını vurğulayıb. O qeyd edib ki, COP29 çərçivəsində nəzərdə tutulan beynəlxalq razılaşmalar ölkələrin karbon emissiyalarını azaltmaq və təmiz enerji həllərinə daha çox yatırım etməsi üçün mühüm platforma olacaq. COP29-un Azərbaycanda keçirilməsi həm də ölkəmizin yaşıl enerji siyasətinə qlobal miqyasda verilən dəyərdir.

İnfosessiyada Energetika Xidməti rəisinin müavini Tural Murtuzəliyev COP29 çərçivəsində Naxçıvanda görülən işlərdən və Naxçıvanda keçiriləcək "Greenfest"ə hazırlıq prosesindən danışıb.

Xidmətin mütəxəssisləri yaşıl texnologiyaların inkişafı, Naxçıvanda yaşıl enerjiyə keçidlə bağlı yerli təşəbbüslər, Naxçıvanın yaşıl enerji potensialı və atmosferə buraxılan karbon qazının azaldılması məsələlərini müzakirə ediblər.

*Səhifəni hazırladılar:*
*Tahir AYDINOĞLU,*
*Səbuhi HƏSƏNOV*
*XQ*

*Naxçıvan – Bakı*

# Müdafiə naziri Zakir Həsənov Türkiyədə

**Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Adana şəhərində keçirilən Aviasiya, Kosmonavtika və Texnologiya - “TEKNOFEST 2024” festivalında iştirak edib.**

General-polkovnik Z.Həsənov Türkiyənin Milli Müdafiə naziri Yaşar Güler ilə görüşüb.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Daha sonra müdafiə nazirləri digər rəsmilərlə birgə sərgini ziyarət edib və qardaş ölkənin hərbi aviasiya vasitələrinin uçuşlarını izləyiblər.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan festivalda çıxış edərək iştirakçıları salamlayıb.

Aviasiya, Kosmonavtika və Texnologiya – “TEKNOFEST 2024” festivalı izləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

*XQ*



# Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Azərbaycanda



**Oktyabrın 4-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyətini Baş Prokurorluqda qəbul edib.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Baş prokuror Azərbaycan və Türkiyənin liderləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın uzaqgörən siyasəti nəticəsində dövlətlərarası əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib və həmin əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “bir millət, iki dövlət” prinsipinə əsaslandığını və gələcəkdə davam edəcəyinə əminlik ifadə edilib.

Türkiyə nümayəndə heyətinin rəhbəri Muhsin Şentürk ölkələrimizin bütün sahələrdə əlaqələrinin sıx olmasını qeyd etməklə, Bakıda keçirilmiş Beynəlxalq Prokurorlar Assosiasiyasının (BPA) 29-cu İllik Konfransının və Ümumi Yığıncağının yüksək səviyyədə keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

O, səfər zamanı Şuşa və Xankəndi şəhərlərini və orada yerləşən bir sıra tarixi-mədəni abidələrini ziyarət etməsinə şərait yaradılmasına görə təşəkkürünü ifadə edərək, erməni vandalizminin ağır nəticələrini təəssüf hissi ilə müşahidə etdiyini, görülmüş bərpa-quruculuq işləri ilə yaxından tanış olduğunu bildirib.

Bundan başqa, Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Qarabağ Universitetinin Xankəndi şəhərində təsis edilməsini tarixi hadisə olmasını vurğulamaqla həmin təhsil müəssisəsinin aparıcı ali məktəblərdən birinə çevriləcəyinə əminlik ifadə edib.

*XQ*

# FHN Akademiyasında gənc kursantların andiçməsi

**Bu gün Fövqəladə Hallar Nazirliyinin Akademiyasında gənc kursantların hərbi andiçmə və məzunların təntənəli buraxılış mərasimi keçirilib.**

Mərasimdə çıxış edən K.Heydərov kursantları, məzunları və onların valideynlərini təbrik edib.

Nazir bildirib ki, ulu öndərin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlər sosial-iqtisadi yüksəliş və tərəqqi mərhələləri kimi tarixə qızıl hərflərlə daxil olub. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində milli təhsilimiz müasir dünya standartları səviyyəsində təşəkkül taparaq ölkəmizin hərtərəfli inkişafına mühüm töhfə verir. Nazir Heydər Əliyev Fondu tərəfindən milli təhsilimizin inkişafı naminə həyata keçirilən çoxsaylı və irimiqyaslı layihələri xatırladaraq onların əhəmiyyətindən danışıb.

Ali dövlət qayğısı sayəsində yüksək səviyyəli kadrların yetişdirilməsi üçün Nazirliyin Akademiyasında hərtərəfli şəraitin mövcud olduğunu deyən nazir kursantların bu şəraitdən yararlanaraq dərin biliklərə yiyələnib daha güclü və qüdrətli Azərbaycana ləyaqətlə xidmət edəcəklərinə əminliyini ifadə edib, bu yolda məzunlara və kursantlara uğurlar arzulayıb.



Daha sonra mərasim FHN-in müvafiq əmri ilə “leytenant” hərbi və xüsusi rütbələri verilmiş məzunlara diplomların təqdim olunması ilə davam etdirilib.

FHN Akademiyasının bayrağı altında şəxsi heyətin təntənəli keçidi ilə mərasim başa çatıb.

*XQ*

# Türkiyənin Ədliyyə naziri Ali Məhkəmədə

**Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Ədliyyə naziri Yılmaz Tunçun başçılıq etdiyi nümayəndə heyəti oktyabrın 4-də Azərbaycan Respublikasının Ali Məhkəməsini ziyarət edib.**

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov bildirib ki, qarşılıqlı səfərlər və ikitərəfli görüşlərin keçirilməsi iki qardaş ölkə arasında möhkəm təməl üzərində qurulan, inkişaf edən əlaqələrə böyük töhfə verir.

Qonaqlara Ali Məhkəmənin fəaliyyəti, ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində, xüsusilə məhkəmələrin rəqəmsallaşması sahəsində görülmüş işlər barədə ətraflı məlumat verilib.

Türkiyə nümayəndə heyətinin rəhbəri Yılmaz Tunç “Bir millət, iki dövlət” prinsipinə əsaslan ikitərəfli əlaqələri yüksək qiymətləndirib. Əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub.

*XQ*

# ABŞ konqresmenləri ölkəmizlə düşmənçilik edir

**Amerika Birləşmiş Ştatlarının bir qrup konqresmeni 2024-cü il oktyabrın 3-də bu ölkənin Dövlət katibi Antoni Blinkenə məktub yazaraq Azərbaycana qarşı qəbuledilməz mövqe ifadə edib.**

Konqresmenlər Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəf Dövlətlərin 29-cu görüşünə (COP29) ev sahibliyi etməsindən istifadə edərək, Ermənistanın gündəliyinə və regionda yenidən münaqişə yaratmağa xidmət edən bütün məsələlərin, o cümlədən müharibə cinayətlərinə görə məsuliyyət daşıyanların azadlığa buraxılması kimi beynəlxalq hüquqa zidd məsələlərin irəlilədilməsinə çalışırlar. Bu, açıq-aşkar şantajdır.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında daha sonra bildirilib:

– Şantaj xarakterli müraciətin müəlliflərində Azərbaycana qarşı nifrət o qədər güclüdür ki, onlar azərbaycanlılara qarşı etnik və dini əsasda ayrı-seçkiliklərini, o cümlədən, bir milyondan artıq azərbaycanlının Ermənistandan və vaxtilə işğal edilmiş Azərbaycan ərazilərindən etnik təmizləməyə məruz qalmasına, həmin ərazilərin Ermənistan tərəfindən viran qoyulmasına və minalanmasına biganəliklərini heç gizlətməyə də çalışmayıblar. Müraciətin üslubu və məzmunu onun ABŞ Dövlət Departamentində tərtib edilmiş olmasına şübhə yeri qoymur.

Biz ABŞ-dən Azərbaycana qarşı şantaj və irqi ayrı-seçkilik siyasətini, eləcə də regionda yeni münaqişə yaratmaq cəhdlərini dayandırmağı və Ermənistandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququna hörmət etməyi tələb edirik”.

**Zəfər marafonunun 9-cu günü**

# Vətən müharibəsinin xronikası: 5 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**



• Azərbaycan Ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad edib. Prezident İlham Əliyev bununla bağlı rəsmi “Twitter” səhifəsində paylaşım edib: “Bu gün Azərbaycan ordusu Cəbrayıl rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndlərini və müxtəlif istiqamətlərdə bir neçə strateji yüksəkliyi azad etmişdir. Qəhrəman ordumuzun uğurlu əməliyyatı davam edir. Qarabağ Azərbaycandır!”

• Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə Azərbaycan Ordusunun öz missiyasını uğurla icra etdiyini və ölkəmizin ərazi bütövlüyünün bərpa olunacağına əminliyini diqqətə çatdırıb: “Bizim əsas məqsədimiz bundan ibarətdir. Bu məqsəd tarixi ədaləti təmin edəcək. Eyni zamanda, bu beynəlxalq qanunlara da hörmət əlaməti kimi qəbul edilməlidir. Çünki Qarabağ və işğal edilmiş digər torpaqlar Azərbaycanın tarixi torpaqlarıdır. Beynəlxalq hüquq baxımından da bu torpaqlar Azərbaycan dövlətinə məxsusdur”.

Ali Baş Komandan daha sonra Ermənistanın əldə edilmiş prinsipləri pozaraq Azərbaycana qarşı yeni hücuma başladığını, ölkəmizin isə əks-hücum əməliyyatına keçib öz torpaqlarını Azərbaycan əsgərinin gücü ilə azad etdiyini bildirib. Qeyd edib ki, buna görə, sadəcə, indiki şəraitdə atəşkəsin bərpa edilməsi məsələsi müzakirə mövzusu ola bilməz: “Bizim tələblərimiz var. Mən bunu artıq rəsmən bəyan etmişəm. Bizə çox ciddi zəmanətlər verilməlidir. Beynəlxalq vasitəçilər bizə bu zəmanətləri təsdiq etməlidirlər. Eyni zamanda, Ermənistanın işğal edilmiş torpaqlardan çıxmaq qrafiki, yəni cədvəli bizə verilməlidir, hansı gün hansı bölgədən çıxacaq. Təbii ki, o zaman müharibə dayanacaq. Çünki biz istəyirik ki, bu məsələ sülh yolu ilə həll olunsun. Bəzi vasitəçilər istəyirlər ki, sadəcə atəşkəs olsun. Atəşkəs isə 1994-cü ildən qüvvədədir. Bu illər ərzində niyə bu məsələ həll olunmadı? Birləşmiş Millətlər Təşkilatının qərarları niyə icra edilmədi? Təcavüzkar dövlətə sanksiyalar niyə tətbiq edilmədi? Bütün bu suallar havada qalır. Bu suallara cavab yoxdur. Bu gün Azərbaycanın şanlı ordusu öz uğurlu əməliyyatlarını keçirərkən, bizim dədə-baba torpaqlarımızı azad edərkən bu çağırışlar gəlir ki, nəbadə irəliyə getməyin, ara verin. Müharibənin öz qaydaları, öz qanunları var. Hər günün öz əhəmiyyəti var, önəmi var”.

Prezident İlham Əliyev müsahibədə bildirib ki, Ermənistanın cəbhə bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc sakinləri atəşə tutması onun terrorçu ölkə olmasını bir daha göstərir. Yəni, bu, Cenevrə Konvensiyasına daban-dabana zidd olan bir hərəkətdir. Mülki əhalini, şəhərləri vurmaq qəbuledilməzdir: “Gəncə şəhəri döyüş bölgəsi deyil. Gəncə şəhərinin içərisində hər hansı bir top, tank yoxdur. Niyə bunu vurursan? Yəni, nifrətə görə. Azərbaycana, Türkiyəyə qarşı nifrət onların qanındadır. Əfsuslar olsun ki, Ermənistanın gənc nəsli də bu nifrət əsasında tərbiyə edilir. Ancaq bu, bizi yolumuzdan döndərə bilməz. Bilirsiniz, Tərtər şəhərini demək olar ki, dağıdıblar. Tərtər şəhərində bizim vətəndaşlar kişi kimi, mərd-mərdanə durublar. Deyiblər ki, öldü var, döndü yoxdur, torpağımızdan heç yerə getməyəcəyik. Nə qədər mərmi düşüb? Gün var idi ki, təkcə Tərtər şəhərinə iki min mərmi düşdü. O da balaca bir şəhərdir, böyük şəhər deyil”.

• Qoşunlarımızın zərbələri nəticəsində Ermənistan silahlı qüvvələrinin cəbhənin Ağdərə istiqamətində 62-ci artilleriya alayının 2, 41-ci artilleriya alayının 2 BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 63-cü tank taborunun daha 3 tankı məhv edilib. Müdafiə Nazirliyi döyüşlərdə Ermənistan ordusunun atıb qaçdığı və bölmələrimizin məhv etdiyi düşmənin silah və texnikalarının fotoşəkillərini yayıb.

• Aprel döyüşlərində düşmənin 6 tankını məhv etdiyinə görə “Azərbaycan Bayrağı” ordeninə layiq görülmüş gizir Tahir Misirxanov Vətən müharibəsinin başlanmasından bəri Ermənistan ordusunun daha 11 zirehli texnikasını sıradan çıxarıb.

2016-cı ilin Aprel döyüşlərində 6 tank məhv edərək “Azərbaycan Bayrağı” ordeninə layiq görülmüş gizir Tahir Misirxanov düşmən texnikasını bu gün də məhv etməkdə davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin məlumatına görə, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında igidliklə vuruşan gizir T.Misirxanov şəxsi rəşadət göstərərək bugünədək düşmənin daha 11 zirehli texnikasını sıradan çıxarıb.

Azərbaycan Ordusunun qələbələrində payı olan, ümumilikdə, 17 düşmən texnikasını məhv edən igid döyüşçümüz bundan qürur duyduğunu və ölkəmizin ərazi bütövlüyünün təmin olunması naminə sonadək döyüşəcəyini fəxrlə deyir.

• Səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə raket buraxılışını qeydə alıb.

Oktyabrın 5-də səhər saatlarında Azərbaycan Hava Hücumundan Müdafiə Qüvvələrinin radiolokasiya sistemlərinin texniki vasitələri Ermənistanın Cermuk, Qafan və Berd rayonları ərazisində yerləşən start mövqelərindən Azərbaycan ərazisinə atılan raket buraxılışını qeydə alıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bütün cəbhə boyu sıxışdırılan düşmən artıq bir neçə gündür Ermənistan ərazisindən Azərbaycan əhalisinin kompakt yaşadığı məntəqələrə, mülki infrastruktura sistemli şəkildə raket zərbələri endirir.

Eyni zamanda, Ermənistanın müdafiə nazirliyi Azərbaycan ərazisinin Ermənistandan atəşə tutulması faktını inkar edir və bunun işğal olunmuş ərazilərimizdən həyata keçirildiyini bildirir. Ermənistanın bu cür məsuliyyətsiz və cinayətkar hərəkəti məqsədyönlü şəkildə Azərbaycanı cavab tədbirləri görməyə təhrik edir.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən intensiv atəşə tutması nəticəsində oktyabrın 5-də saat 16:00-a olan məlumata görə, həlak olmuş mülki şəxslərin sayı 25-ə, xəsarət alanların sayı isə 127-yə çatıb. Bundan başqa, 316 evə və 56 mülki obyektə ciddi ziyan dəyib.

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror əməllərini davam etdirən təcavüzkar Ermənistanın hərbi-siyasi rəhbərliyinin bilavasitə göstərişi ilə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində həlak olan və xəsarət alan mülki şəxslərin, eləcə də infrastruktura dəyən ziyanla bağlı yeni statistika açıqlayıb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən respublikamızın şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

*XQ*

# Mərkəzi Asiya ölkələrinin və Çinin Orta Dəhlizə marağı artır

**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev xalqa müraciətində gələn il Xəzər dənizi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsinin başa çatacağını bildirib. Layihənin beynəlxalq dəhlizlərə və transsərhəd məlumat axınlarına qoşulacaq rəqəmsal infrastrukturun yaradılması baxımından Qazaxıstan üçün son dərəcə zəruriliyini diqqətə çatdıran dövlət başçısı telekommunikasiya şəbəkələrinin və məlumat mərkəzlərinin sürətli inkişafına həssaslıqla yanaşılmasının, qlobal kibertəhlükəsizlik standartlarının tətbiqinin, mütəxəssislərin səriştəsinin artırılmasının əhəmiyyətini vurğulayıb.**




Kasım-Jomart Tokayev bu il sentyabrın 6-da Qazaxıstan, Azərbaycan və Özbəkistanın energetika nazirlərinin Daşkənd Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanan sənəddə Xəzər dənizinin dibi boyunca, həmçinin digər ölkələrin ərazisindən keçməklə yüksəkgərginlikli kabel çəkilməsi yolu ilə enerji sistemlərinin birləşdirilməsi imkanının yaradılacağına əminliyini diqqətə çatdırıb. O, Avropa İttifaqı (Aİ) ölkələrinə "yaşıl" enerji təchizatının texniki-iqtisadi baxımdan ən optimal variantının da həyata keçiriləcəyini söyləyib.

Qazaxıstanın energetika naziri Almasadam Satkaliyev sözügedən forum çərçivəsində Xəzər dənizinin dibi ilə dərin dəniz kabelinin çəkilməsi üçün əvvəllər hazırlanmış texniki spesifikasiya layihəsinə diqqət çəkib və bu layihədə əksini tapan beynəlxalq ötürmə dəhlizlərinin inkişafı və "yaşıl" enerjinin Aİ ölkələrinə satışı üçün təklif olunan biznes modelinin işlənib hazırlanacağını bildirib.

Üç gün sonra, sentyabrın 9-da Prezident Tokayevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü əsnasında enerji, nəqliyyat və logistika sahələrində əvvəllər əldə edilmiş razılaşmalar müzakirə olunub və onların icrasının gedişindən məmnunluq ifadə olunub. Beləliklə, Mərkəzi Asiya dövlətlərinin və Azərbaycanın Xəzər dənizi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsinin inkişafında maraqlı olduğu açıq-aşkar görünür.

Qazaxıstanın nəqliyyat marşrutlarından, o cümlədən Azərbaycan istiqamətindən istifadə etməklə Avropa ilə ticarətin həyata keçirilməsi son illərdə genişlənib. Məsələn, Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin ötən il Qazaxıstanın Xəzər dənizindəki Aktau limanına səfəri rəsmi Berlinin Orta Dəhlizin inkişafına marağını nümayiş etdirib və bu dövlətin adıçəkilən marşrut vasitəsilə Çindən Avropaya mal daşınmasında məqsədini qətiləşdirib.

Beləliklə, Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Avropa İttifaqını birləşdirən Orta Dəhliz güclü ticarət alyansı yaradır. Pekin də bu proseslərdə fəal iştirak edir. Çindən Avropaya malların tranzitinin 85 faizi də Qazaxıstandan keçir və bunun əhəmiyyətli hissəsi Xəzər dənizi və Azərbaycan vasitəsilə gerçəkləşir.

Orta Dəhliz Beynəlxalq Assosiasiyası İdarə Heyətinin sədri Nurlan Sauranbayev qeyd edib ki, bu marşrut boyu yerləşən ölkələrdə logistika infrastrukturu rəqabətədavamlı yük daşımalarının tam həyata keçirilməsinə imkan verir. Sözügedən assosiasiyanın məlumatına görə, yük daşımaları 2023-cü ildə 65 faizə (2,7 milyon tona qədər) yüksəlib.

Dünya Bankının proqnozuna əsasən, 2030-cu ilə qədər Orta Dəhlizlə yükdaşımaların həcmi 3 dəfə artacaq. Avropa Komissiyasının vitse-prezidenti Valdis Dombrovskis Almaniyanın "DW" nəşrinə müsahibəsində bildirib ki, Avropa İttifaqı bu marşrutun inkişafı üçün 10 milyard avro investisiya ayırmaq niyyətindədir.

Rusiya – Ukrayna müharibəsi başlayandan sonra Avropa Şərqlə ticarət əlaqələri üçün alternativ nəqliyyat marşrutlarına ehtiyac duydu. Azərbaycan hökuməti ölkənin nəqliyyat infrastrukturunu quraraq qatarların və avtomobillərin tranzit keçidi üçün hər cür şərait yaratdı. Beynəlxalq nəqliyyat marşrutlarının ölkəmizdən keçməsi Azərbaycana təkcə iqtisadi deyil, həm də siyasi dividendlər gətirməyə başladı.

# Sumqayıtda İtaliya ilə birgə müəssisə qurulacaq

**İqtisadiyyat naziri Mikayıl Cabbarov və Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf İtaliyanın "Technip Energies" şirkətinin baş direktoru Marko Villa ilə görüşüblər.**




Görüşdə bərpaolunan enerji ehtiyatlarına malik olan ölkəmizin "yaşıl artım" və davamlı inkişaf məkanına çevrilməsi məqsədilə xarici şirkətlərlə fəal əməkdaşlıq edildiyi, mövcud potensialın reallaşdırılmasında beynəlxalq təcrübənin, eləcə də müasir texnologiyaların tətbiqinin önəmi qeyd olunub. Azərbaycanda beynəlxalq tərəfdaşlarla "yaşıl" enerjinin istehsalı istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib.

Görüş çərçivəsində "SOCAR Downstream Management" MMC, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və İtaliyanın "Technip Energies S.p.A." şirkəti arasında "Plastik tullantılardan piroliz yağının istehsalı" layihəsi üzrə Birgə Müəssisənin təsis edilməsi haqqında müqavilə imzalanıb.

Ümumi dəyəri 97 milyon avro olan layihənin reallaşdırılması tullantıların səmərəli emalına, sənaye istehsalının təkmilləşdirilməsinə və karbon emissiyasının azaldılmasına stimul verəcək. Eyni zamanda, sənaye məhsullarının müxtəlifliyini və dayanıqlığını artıraraq, ölkənin təbii ehtiyatlarından daha səmərəli istifadəni təmin edəcək. Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa ediləcək zavodda ildə 36 min ton plastikdən 23 min ton piroliz yağı istehsal ediləcək. Layihədə "AİŞ" 30 faiz, "Technip Energies S.p.A." 35 faiz, Dövlət Neft Şirkəti 35 faiz iştirak paylarına sahibdir.

Tədbirdə "Plastik tullantılardan piroliz yağının istehsalı" layihəsi barədə təqdimat nümayiş olunub. Layihə üzrə tətbiq ediləcək piroliz yağı texnologiyası plastik tullantıların yüksək temperaturda parçalanması yolu ilə təkrar emal edilməsini təmin edir. Bu, tullantıların azaldılması və yanacaqlara alternativ yanacaq istehsalı ilə karbon izini azaldır.

Qeyd edək ki, 60 illik təcrübəyə malik və 15 mindən çox işçi heyəti olan "Technip Energies" şirkəti 34 ölkədə dayanıqlı yanacaq, kimya, tullantıların emalı, qaz və aşağı karbon enerjisi, innovativ texnologiyalar, karbonsuz həllər sahələrində fəaliyyət göstərir.

# Builki yarmarkada 67,5 ton bal satılıb

**Bu il fermerlər tərəfindən arıçılıq məhsullarının 24-cü sərgi-satış yarmarkasına çıxarılmış 120 tona yaxın arıçılıq məhsulunun 67,5 tonu satılıb. Bunun da 3 tondan çoxu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.**



Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə keçirilən builki bal yarmarkasında Azərbaycanın bütün iqtisadi rayonlarını təmsil edən 275 arıçı iştirak edib. İştirakçılara maksimum 400 kiloqram bal və maksimum 30 ədəd arı şanı (çərçivə) gətirməyə icazə verilib. Yarmarkada 37 ton cökə balı, 26,3 ton çiçək balı, 13,7 ton meşə balı satışa çıxarılıb. Çiçək, cökə və meşə balları yarmarka dövründə satışa təqdim olunan bütün bal məhsullarının 64 faizini təşkil edib. Bundan əlavə, arıçı fermerlər yarmarkada qaratikan balı, may balı, dağ balı, biyan balı, çəmən balı, şabalıd balı, akasiya balı, mum, propolis, çiçək tozu, güləm, podmor, propolis cövhəri, arı südü, arıçılıq məhsullarından hazırlanan kosmetik vasitələr satışa çıxarıblar.

Təqdim edilən bütün arıçılıq məhsulları Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən laboratoriya şəraitində yoxlamadan keçirilib. Yarmarkaya yalnız keyfiyyət və qida təhlükəsizliyi göstəriciləri uyğun olan arıçılıq məhsulları buraxılıb.

# İpoteka – yeni mənzillərə əlçatanlıq

**Cari ilin yanvar–sentyabr aylarında İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına 365,6 milyon manat ipoteka krediti verilib. Bunun da 66,5 milyon manatını güzəştli ipoteka kreditləri təşkil edib. Fonddan verilən məlumata görə, ilin əvvəlindən adi ipoteka kreditləri hesabına 3017, güzəştli ipoteka kreditləri hesabına isə 844 ailə özünün mənzil şəraitini yaxşılaşdırıb. Bu ilin 9 ayında verilmiş ipoteka kreditlərinin orta məbləği isə 94 min 683 manat təşkil edib.**

Qeyd edək ki, İpoteka və Kredit Zəmanət Fondu Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş nizamnaməsinə uyğun olaraq əhalinin mənzil təminatının yaxşılaşdırılması istiqamətində fəaliyyətini davam etdirir. Ötən müddətdə fondun vəsaiti hesabına 3,2 milyard manat dəyərində ipoteka krediti verilib ki, bu da 51 min 710 ailənin mənzil şəraitini yaxşılaşdırmasına imkan verib. Həmin məbləğin 931 milyon manatdan çoxunu dövlət dəstəyinə ehtiyacı olan xüsusi kateqoriyaya aid şəxslərə verilmiş güzəştli ipoteka kreditləri təşkil edib. İpoteka kreditlərindən faydalananların 67 faizi isə gənclər və gənc ailələr olub.

# Şərqi Zəngəzurda güclü sənaye potensialı yaradılır

*"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına 133,8 milyon manat investisiya yatırılacaq*



**(əvvəli 1-ci səhifədə)**

Dövlət başçısının Şərqi Zəngəzura səfəri çərçivəsində sənaye parkının ərazisində təməli qoyulmuş yeni müəssisələr də işğaldan azad edilmiş torpaqlarımızın ölkə iqtisadiyyatına reinteqrasiyasını, bölgənin sənaye potensialının hərəkətə gətirilməsini və yeni iş yerlərinin yaradılması prosesini bir qədər də sürətləndirəcək. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 3-də Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkına baş çəkiblər. Burada da dövlətimizin başçısına və birinci xanıma sənaye parkında görülən işlər barədə məlumat verilib.

Ölkə Prezidentinin iştirakı ilə sənaye parkının ərazisində təməli qoyulmuş mebel klasteri Litvanın "Dominari" şirkətinə məxsusdur. Xatırladaq ki, qısa müddətdə Baltikyanı ölkələrin və Şərqi Avropanın aparıcı mebel istehsalçılarından birinə çevrilmiş şirkət hazırda 2 min işçi və 200-dən çox korporativ müştəri bazasına malikdir. "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyata alınmış Litva şirkəti tərəfindən sənaye parkının 10 hektar ərazisində 5 mərhələdən ibarət mebel klasteri layihəsinin həyata keçirilməsi nəzərdə tutulur.

İlkin mərhələdə döşək istehsalının əsas xammalı olan paralon materialının istehsalı zavodunun və mebel klasterinin müxtəlif mərhələlərini parça ilə təmin edəcək toxuculuq fabrikinin qurulması planlaşdırılır. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan müəssisədə ilkin mərhələdə 650 nəfər işlə təmin ediləcək. İşçilərin Cəbrayıl və ətraf rayonlardan cəlb olunması nəzərdə tutulur.

"Dominari" şirkəti ildə 6 min ton elastik poliuretan, 250 min ədəd müxtəlif mebel, həmçinin döşəklər, divanlar və çarpayılar üçün 1 milyon ədəd üzlük, 200 min döşək, 5,5 min kubmetr mebel komponentləri istehsal edəcək. Həmin məhsulların daxili bazarda satılması ilə yanaşı, ixracı da həyata keçiriləcək.

"Karabakh Stone" MMC isə 2024-cü ilin iyulunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkətin yeni müəssisəsi sənaye parkının 3,5 hektar ərazisində yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq. İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur.

İstehsal gücü 1 milyon 250 min kvadratmetr təşkil edəcək müəssisədə hazırlanacaq məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Türkiyə texnologiyasından istifadə ediləcək müəssisənin 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılır.

"Prestij-Kimya" MMC sənaye parkının 2,15 hektar ərazisində dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək zavod inşa edəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin ediləcək. Türkiyə, Çin və Avropanın qabaqcıl ölkələrinin texnologiyalarından istifadə ediləcək müəssisədə il ərzində 30 min ton müxtəlif dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhsulların istehsal olunması nəzərdə tutulur. Müəssisədə istehsal olunacaq məhsulların daxili bazarla yanaşı, xarici bazarlarda da satışı planlaşdırılır.

Xatırladaq ki, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 oktyabr 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Sənaye parkının əsas fəaliyyət istiqamətlərinə logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması kimi mühüm tədbirlər daxildir.

Ərazisi 200 hektar olan sənaye parkı logistik imkanlar baxımından çox əlverişli ərazidə təşkil olunub ki, bu da sahibkarların diqqətini cəlb edən əsas məqamlardan biridir. Parkın yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşməsi isə onun uğurlu fəaliyyəti üçün zəmin yaradır. Belə ki, sənaye parkının ərazisindən həmin magistral yollara birbaşa giriş-çıxışın təmin edilməsi Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə və Türkiyədən Azərbaycana, eləcə də ölkəmizin ərazisindən Rusiyaya yüklərin daşınmasına imkan verəcək.

Prezident fərmanında qeyd olunduğu kimi, Şərqi Zəngəzur iqtisadi rayonunun Arazboyu ərazisinin əsasən düzənlik relyefə və bölgənin cənub istiqamətində giriş qapısı mövqeyinə malik olması adıçəkilən sənaye zonasının fəaliyyəti üçün əlverişli şəraiti təmin edir. Bunun nəticəsidir ki, son zamanlar sənaye parkında iş görmək arzusunda olan sahibkarlıq subyektlərinin sayı getdikcə artır. Hazırda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının 13 rezidenti və 1 qeyri-rezidenti var. İnvestorlar tərəfindən ümumi olaraq parka 133,8 milyon manat investisiyanın yatırılması, 2 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Ötən müddətdə rezidentlər tərəfindən sənaye parkına 20 milyon manatdan artıq investisiya yatırılıb, 40-dan çox daimi iş yeri yaradılıb.

Rezidentlər tərəfindən sənaye parkında fibrobeton və polistirolbeton blokların, quru inşaat qatqılarının, tamet daşların, müxtəlif çeşiddə yapışqan lentlərin, ayaqqabıların, dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların və digər məhsulların istehsalı, 40 otaqlı hotelin və 100 nəfərlik restoranın tikintisi həyata keçiriləcək, logistik mərkəz inşa olunacaq.

Yeri gəlmişkən, artıq "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında bir müəssisə fəaliyyətə başlayıb. "Avto Lizinq Azərbaycan" MMC Azərbaycan – Rusiya birgə müəssisəsində kənd təsərrüfatı texnikalarına və yük maşınlarına texniki servis xidməti göstərilir.

Göründüyü kimi, "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında reallaşdırılacaq layihələr bölgənin potensialının ölkə iqtisadiyyatına reinteqrasiyasına və yerli istehsalın inkişafına böyük təkan verəcək. Eyni zamanda, parkın ərazisində çoxsaylı iş yerləri açılacaq ki, bu da ölkə üzrə məşğulluq səviyyəsinin yüksəlməsinə əlavə imkanlar yaradacaq.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***




# “ACWA Power” də COP29-un rəsmi tərəfdaşı seçilib




**Elektrik enerjisi və mineralsızlaşdırılmış su stansiyalarının layihəçisi, investoru və operatoru “ACWA Power” şirkəti COP29 tədbirinin enerji və su məsələləri üzrə rəsmi tərəfdaşı seçilib. Tərəfdaşlıq “ACWA Power” şirkətinin bərpaolunan enerji sahəsində dayanıqlı təcrübələri tətbiq etmək öhdəliyinə sadiqliyinin göstəricisidir.**

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova deyib: “ACWA Power” şirkətinin qlobal enerji keçidində misilsiz rolu bu müzakirələrə əhəmiyyətli dərəcədə töhfə verəcək. Şirkətin Azərbaycanın bərpaolunan enerji layihələrinin idarə edilməsində, o cümlədən 240 meqavatlıq külək elektrik stansiyasının reallaşdırılmasında fəal iştirakı xüsusilə diqqətəlayiqdir və regionda bərpaolunan enerji həllərinin irəliləyişinə sadiqliyini nümayiş etdirir. Digər tərəfdaşlarımızla yanaşı, “ACWA Power” şirkəti müzakirələrin aparılması və mükəmməlliyin nümayiş etdirilməsində əsas rol oynayacaq. Biz effektiv iqlim fəaliyyətləri üçün “ACWA Power” şirkəti ilə birlikdə işləməyi səbirsizliklə gözləyirik”.

“ACWA Power” şirkətinin baş icraçı direktoru Marko Arselli qeyd edib: “Etibarlı, rəqabətədavamlı və dayanıqlı təchizatı təmin etməklə biz qazıntı yanacağından enerjiyə keçidi daha da sürətləndirməliyik. Məhz bu məsələni diqqət mərkəzində saxlamaqla biz “xalis sıfır” hədəfinə və uzunmüddətli iqlim ambisiyalarına töhfə verən həlləri ədalətli və inklüziv şəkildə təqdim edirik. COP29-un Azərbaycanda keçirilməsi xüsusi əhəmiyyət kəsb edir. İllər öncə Azərbaycan Avropanın aşağı karbonlu, təhlükəsiz və difersifikasiyalı həllər təklif edən etibarlı qaz təchizatçısı oldu.

Bu gün isə ölkə yeni “yaşıl” enerji mənbələri və “yaşıl” molekullar üzrə Mərkəzi Asiya və Avropa arasında körpü rolunu oynamaq potensialına malikdir. Sözügedən “yaşıl” enerji mənbələri və “yaşıl” molekullar isə “ACWA Power” şirkətinin qlobal miqyasda ən rəqabətədavamlı qiymətə və ən yüksək etibarlılığa nail olduğu texnologiyalardır. Öz təcrübəmizi bölüşmək istəyi ilə yanaşı, biz bu məqsədi dəstəkləyərək dayanıqlı gələcək qurmağı təklif edirik. Qurduğumuz həmin gələcəkdə təmiz enerji sadəcə istək yox, həm də daha yaxşı sabahın təməli olacaq!”

Qeyd edək ki, dünyanın ən böyük mineralsızlaşdırılmış su təchizatçısı olan “ACWA Power” şirkəti “yaşıl” hidrogen sənayesində novatorçu və qlobal enerji keçidi üzrə liderdir. 2004-cü ildə Ər-Riyad şəhərində təsis edilmiş “ACWA Power” şirkəti ötən dövrdə 4 mindən çox insanı işlə təmin edib. Hazırda isə şirkət Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyanın 13 ölkəsində fəaliyyət göstərir. Öz strategiyalarını BMT-nin iqlim hədəflərinə uyğunlaşdıran “ACWA Power” şirkəti enerjidən səmərəli istifadəni artırmaq, su resurslarından rasional istifadəni təmin etmək və ətraf mühitə təsiri minimuma endirmək üçün qlobal səviyyədə innovativ bərpa olunan enerji layihələrini həyata keçirir.

Yeri gəlmişkən, COP29-un rəsmi tərəfdaşları bu imkandan istifadə etməklə qlobal iqlim siyasəti ilə bağlı fəaliyyətlərini genişləndirəcək, dayanıqlılıq səylərini ön plana çıxaracaq və öz əsas biznes sahələrində iqlim fəaliyyətini dəstəkləmək imkanı qazanacaqlar. Bakıda keçiriləcək COP29 tədbirinin tərəfdaşı olan bu şirkətlər, həm də ekoloji siyasətlərin təkmilləşdirilməsində və 1,5 dərəcə hədəfi baxımından qlobal icmalara dəstək göstərilməsində oynadıqları mühüm və həlledici rolu nümayiş etdirə biləcəklər.

# COP29-da maliyyə məsələsi ciddi önəm daşıyacaq

**Dünyada baş verən qlobal istiləşmənin yaratdığı fəsadlar getdikcə daha ciddi xarakter alır. Sənayeləşmə dövrünün ilk yüz ilində Yer kürəsində orta temperatur hər on ildən bir 0,07 dərəcə artırdısa, 1980-ci ildən etibarən planetin səthi hər on ildə 0,2 dərəcədən çox istiləşir. Artıq son 20 ildir ki, Yer kürəsində hər il əvvəlkindən daha yüksək istilik qeydə alınır. Təbii ki, bu gedişlə qlobal istiləşməni Paris İqlim Sazişinə əsasən, 1,5 dərəcə artım səviyyəsində saxlamaq o qədər də asan məsələ deyil.**






İqtisad elmləri doktoru, professor Fikrət Yusifovun sözlərinə görə, qarşıya qoyulan hədəflərin reallaşdırılması üçün böyük həcmdə maliyyə vəsaiti tələb olunur. Azərbaycanın COP29 konfransı çərçivəsində atdığı mühüm addımlardan biri də inkişaf etməkdə olan ölkələrdə iqlim fəaliyyətinə investisiya yatırmaq məqsədilə İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılmasıdır: “Fondun kapitalının mədən yanacağı istehsal edən ölkələrin, eləcə də neft–qaz və kömür hasilatı ilə məşğul olan şirkətlərin maliyyə dəstəyi ilə formalaşdırılması nəzərdə tutulur.

Sözügedən fondunun yaradılması COP29-un fəaliyyət gündəliyinin bir hissəsi olaraq bu gün respublikamızda bu tədbir çərçivəsində elan edilən 14 təşəbbüsdən biridir. Fondun inkişaf etməkdə olan ölkələrdə təbii fəlakətin nəticələrini operativ şəkildə aradan qaldırmaq üçün güzəştli və qrant əsaslı dəstəyi gerçəkləşdirən xüsusi texniki imkanlara malik olacağı gözlənilir. Azərbaycan bu təşəbbüsü irəli sürdüyünə və təsisçi donor dövlət olduğu üçün bu fonda ilkin olaraq 1 milyard dollar həcmində ilkin vəsait yönəldib və 10 səhmdar ölkənin donor kimi fonda qoşulmasından sonra fəaliyyətə başlayacağını planlaşdırıb”.

İqtisadçı alim İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun qarşıda duran hədəfləri hansı səviyyədə reallaşdıra biləcəyinə dair ehtimallar haqqında da fikirlərini diqqətə çatdıraraq bildirib ki, dünya ölkələrinin və iri istehsalçıların ümumbəşəri problemin həllinə münasibəti fonunda Azərbaycanın təşəbbüsü ilə fəaliyyət göstərəcək fondun formalaşmasında fəallığın olacağı bir o qədər də inandırıcı görünmür. Ən azından ona görə ki, ölkələrin əksəriyyəti indiyə qədər bu məsələdə yetərincə passivlik nümayiş etdiriblər. Bu passivliyin əsas səbəbi isə onların məsələyə başqa prizmadan baxması ilə əlaqəlidir. Bir sözlə, ortada tərəflərin “problem nə qədər ki, mənim qapımı döymür, mən onun həllinə nədən indidən vəsait xərcləyim” kimi elan olunmayan bir yanaşması var. Digər tərəfdən, böyük həcmdə yanacaq hasil edən ölkələrdən hansınınsa problemin həlli ilə bağlı addımlar atmaması və ya bu məsələdə passivlik nümayiş etdirməsi digər dövlətləri də həmin mövqeyə sürükləyə bilir.

F.Yusifovun fikrincə, bütün bunların fonunda yanacaq hasil edən 10 ölkənin səhmdar olaraq yaradılacaq fonda, ümumilikdə, bir milyard dollar vəsait yatırması bir qədər şübhə doğurur: “Yer üzündə Azərbaycandan dəfələrlə çox neft–qaz və digər yanacaq növləri istehsal edən dövlətlər var. Bu yanacaqdan istifadə edərək atmosferə zərərli maddələrin tullanmasına “xidmət” edən yüzlərlə nəhəng istehsalçı mövcud olsa da, bəşəriyyəti fəlakətə aparan qlobal istiləşmənin həmin ölkələrin əksəriyyətini və iri istehsalçıları eyni səviyyədə qayğılandırdığını demək çətindir. Lakin inanmaq istərdik ki, yanacaq resurslarının istismarı ilə məşğul olan ölkələr problemin ciddiliyinə real qiymət verərək səhmdar kimi bu fonda vəsaitlər yatırtmaqda tərəddüd etməyəcəklər”.

Mütəxəssis vurğulayıb ki, maliyyə çatışmazlığı səbəbindən istiləşmənin qarşısı alınmasa, bu, yüz milyonlarla insanın həyatını itirməsi riski deməkdir. Başqa sözlə, əgər istiləşmə problemi tezliklə həllini tapmasa, suyun səviyyəsinin qalxması səbəbindən 2050-ci ilə qədər dəniz və okeanların sahillərində yerləşən yaşayış yerlərindən 300 milyondan çox insanı başqa yerlərə köçürmək lazım gələcək. Qlobal istiləşmə nəticəsində baş verən digər təbii fəlakətlər nəticəsində isə yüz milyonlarla insan həyatını itirə bilər. Bütün bu reallıqlar bəşəriyyəti nə qədər ciddi düşündürsə də, ötən əsrin 70-ci illərindən başlayaraq, indiyə qədər görülən tədbirlərlə qlobal istiləşmənin qarşısını almaq, ən azından onu dayandırmaq mümkün olmayıb.

Professor maliyyə fondu ilə yanaşı, iqlim məsələlərində digər problemlərin həllinin tək ölkəmizdən asılı olmadığını da diqqətə çatdırıb: “Azərbaycanın bəşəriyyəti narahat edən iqlim probleminin həllinə bu qədər həssas yanaşması dövlətimizin məsələnin ciddiliyini lazımınca qiymətləndirə bilməsindən qaynaqlanır. Lakin bu təşəbbüsün reallaşdırılması üçün digər dövlətlərin də maliyyə dəstəyi zəruridir”.

Alim söhbətinin sonunda bildirib ki, inkişaf etməkdə olan ölkələr fonda dəstək nümayiş etdirsələr, bunu Azərbaycanın uğuru saymaq olar. Artıq inkişaf etməkdə olan ölkələrdə iqlim maliyyələşməsinin mühüm sütunu sayılan İqlim Dəyişmələri üzrə İtki və Zərər Fonduna vəsait ayrılması prosesinə başlanılıb. Bu təşəbbüslər fonunda iqlimdəki xoşagəlməz dəyişiklikləri aradan qaldırmağa addım-addım yaxınlaşırıq.

# Ədalətli enerji keçidinə dəstək artır



**Azərbaycanın məqsədi ədalət və bərabərliyə əsaslanan enerji keçidinə nail olmaqdır. Bu fikri energetika naziri Pərviz Şahbazov Braziliyanın G20-yə sədrliyi çərçivəsində Foz do İquaçu şəhərində keçirilən “Təmiz enerji və innovasiyalar üzrə nazirlər” iclasında çıxışı zamanı səsləndirib.**

Braziliyanın G20 və COP platformaları vasitəsilə təmiz enerjiyə sürətli keçidi təşviq edən mühüm bir missiya yerinə yetirdiyini vurğulayan nazir COP29-a ev sahibliyi edəcək Azərbaycanın ədalət və bərabərliyə əsaslanan, bütün ölkələrin faydalana biləcəyi enerji keçidinə nail olmaq məqsədindən və bu istiqamətdə irəli sürdüyü təşəbbüslərindən bəhs edib. Bildirilib ki, bunun üçün Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, müxtəlif tərəflər arasında körpü olmaqla həmrəylik əsasında balanslaşdırılmış nəticə əldə etməyə, iqlim maliyyəsini artırmağa, enerji keçidi qarşısında maneələri aradan qaldıran yeni təşəbbüs və öhdəliklərin qəbuluna çalışır.

Nazir ölkəmizin elektrik enerjisinin istehsal gücündə bərpaolunan enerjini 2 dəfədən çox artıraraq 33 faizə çatdıran 2 qiqavatlıq stansiyaların enerji sisteminə inteqrasiyası və 2030-cu ilədək 5 qiqavat güclərin ixraca yönəldilməsi ilə bağlı “yaşıl” kursunun “Qlobal enerji anbarları və şəbəkələri öhdəliyi” təşəbbüsünü formalaşdırdığını da diqqətə çatdırıb: “Enerji keçidinin “onurğa sütunu” olacaq şəbəkə infrastrukturunun inkişafı üçün qlobal enerjinin saxlanılması potensialını altı dəfə artıraraq 2030-cu ilə qədər 1500 qiqavata çatdırmağı, 2040-cı ilə kimi, ümumilikdə, 80 milyon kilometrdən çox elektrik şəbəkəsinin əlavə edilməsini və ya təkmilləşdirilməsini təklif edirik”.

Azərbaycanın daha bir təşəbbüsünün transformativ inkişaf və enerji təchizatçısı gündəliyinin əsas komponentlərindən olan hidrogenlə bağlı olduğunu vurğulayan energetika nazir deyib ki, ölkəmiz “yaşıl” enerji dövlətinə transformasiyada qətiyyətlidir və qlobal enerji keçidini irəli aparmaq əzmindədir.

# İqlim dəyişikliyinin təhlükəli təhdidləri

**Təkcə bu il ərzində iqlim dəyişikliyinin su və kənd təsərrüfatına çoxsaylı dağıdıcı təsirləri müşahidə edilib. Məsələn, cari ilin əvvəlində yağıntıların az olması Afrikanın cənubunda məhsulun sıradan çıxmasına səbəb olub və təxminən, 20 milyon insan ac qalmaq riski ilə üzləşib. Eyni zamanda, su qıtlığı Zambiya, Zimbabve və Malavidə vəba xəstəliyinin yayılması ilə nəticələnib və hər üç ölkədə fəlakət vəziyyəti elan edilib.**



Bu sözləri Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində keçirilən konfransdakı çıxışında deyib. Nazir açıqlamasının davamında kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatının mühüm hissəsi olduğunu və işçi qüvvəsinin üçdəbirindən çoxunu təşkil etdiyini vurğulayıb: “Lakin son illərdə yağıntılar orta hesabla təxminən 10 faiz azalıb. Bu, məhsuldarlığı aşağı salır və məhsul yığımına təsir edir. Özünəməxsus ekosistemi olan Xəzər dənizinin səviyyəsinin azalması isə dəniz və sahilyanı ərazilərin ekosisteminə, biomüxtəlifliyə və sahil infrastrukturuna ciddi təsir göstərir”.

COP29-un müəyyən edilmiş Prezidentinin sözlərinə görə, əgər tədbir görülməsə, proqnozlaşdırmaya əsasən, həmin dağıdıcı təsirlər dünyada normaya çevriləcək. İqlim dəyişikliyinin bəzi şiddətli quraqlıqların 100 dəfə daha tez-tez baş verməsinə səbəb olacaq. Qlobal temperaturun 2 dərəcə artması isə daha 200 milyon insanı aclıqla üz-üzə qoyacaq. Su və kənd təsərrüfatı sistemləri ilə bağlı gərginliklər daha da çətinləşəcək. Odur ki, dəyişən iqlimə uyğunlaşmaq üçün davamlı qida və su sistemləri qurmalıyıq. Bu, daha çox maliyyə, tədqiqat və yeni sistemlərin tətbiqi deməkdir.

# Azərbaycan–Rusiya Xəzər işçi qrupu yaradılıb



**Azərbaycan və Rusiya tərəfindən Xəzər dənizinin dayazlaşması məsələsi ilə bağlı ikitərəfli işçi qrup yaradılıb.**

Azərbaycanın və Rusiyanın aidiyyəti nazirliklərinin və qurumlarının, elmi-tədqiqat institutlarının nümayəndələrindən ibarət işçi qrup Xəzər dənizinin dayazlaşması ilə əlaqədar tədqiqatlar aparacaq.

Qrupun yaradılması haqqında qərar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu il avqustun 19-da keçirilmiş görüşünün yekunlarına əsasən qəbul olunub.

Görüş zamanı tərəflər arasında Xəzər dənizinin səviyyəsinin azalması ilə bağlı məsələlər müzakirə edilib.

Yüksək səviyyədə əldə olunmuş razılaşmaların icrası məqsədilə sentyabrın 17-də Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın həmsədrləri – Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Federasiyası Baş nazirinin müavini Aleksey Overçuk Xəzər dənizinin dayazlaşması problemini, dəniz səviyyəsinin dəyişməsi ilə bağlı gələcək ssenarilərin hazırlanması və müvafiq adaptasiya tədbirləri barədə variantları nəzərdən keçirib, həmçinin ikitərəfli işçi qrupun yaradılması barədə razılığa gəliblər.

Oktyabrın 2-də işçi qrupun tərkibi formalaşdırılıb. Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev və Rusiya Federasiyasının təbii sərvətlər və ekologiya nazirinin müavini Sergey Anopriyenko qrupun həmsədrləri təyin olunub.

Birgə fəaliyyət formatı çərçivəsində mütəxəssislər tərəfindən Xəzər dənizinin səviyyə dəyişikliklərinin səbəblərinin araşdırılmasını, qısamüddətli və uzunmüddətli proqnozların hazırlanmasını, adaptasiya strategiyasını, su səviyyəsinin dəyişikliklərinin monitorinqini, birgə elmi tədqiqatların aparılmasını, həmçinin sahilyanı zonalara mənfi təsirləri azaltmağa yönəlmiş digər tədbirləri özündə əks etdirən Fəaliyyət Planı hazırlanacaq.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Cəbrayılda Şəhər Günü təntənəsi



**Cəbrayıl şəhəri doğma sakinlərinə qucaq açıb. Daha bir tarixi gün – Cəbrayıl Şəhəri Günü sakinlərin iştirakı ilə öz doğma şəhərlərində qeyd edilib.**



Vətən müharibəsinin 8-ci günü – oktyabrın 4-də Cəbrayıl şəhəri və ətraf kəndlər düşməndən təmizlənib. Ötən il iyulun 31-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" sərəncam imzalayıb. Vətən müharibəsində qazanılmış tarixi Qələbəni əbədiləşdirmək məqsədi daşıyan sərəncama əsasən, 4 Oktyabr Cəbrayıl Şəhəri Günü kimi 2 ildir ki, təntənəli şəkildə qeyd olunur.

Builki Cəbrayıl Şəhəri Günü şənliklərində mədəniyyət naziri Adil Kərimli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəsi Vahid Hacıyev, ziyalılar, incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasim konsert proqramı ilə başlayıb. Sonra Azərbaycan Dövlət Rəqs Ansamblının çıxışları izlənilib, tamaşalar nümayiş olunub. Ziyarətçilər Cəbrayılın qədim və müasir tarixini, mədəni irsini əks etdirən sərgilərlə də tanış olublar.

Cəbrayıl Şəhəri Günü axşam möhtəşəm atəşfəşanlıqla başa çatıb.

İşğaldan azad edilmiş digər ərazilərdə olduğu kimi, Cəbrayılda da indi genişmiqyaslı abadlıq-quruculuq işləri aparılır. Bu il sentyabrın 26-da Cəbrayıl şəhərinə köç başlayıb. Artıq şəhər ilk sakinlərini qoynuna alıb. İndiyədək 133 ailə, ümumilikdə 433 nəfər öz ata-baba yurduna dönərək orada tikilən rahat, geniş və işıqlı mənzillərdə yaşamağa başlayıb.

**Doğma Cəbrayılına qovuşmuş Namiq Əliyev yurda qayıdış sevincini və bayram təəssüratını mediaya belə açıqlayıb.**

– Bu gün bizim üçün ikiqat fərəhlidir. Cəbrayılın işğaldan azad edildiyi günü doğma şəhərimizdə qeyd edirik. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu, sözün əsl mənasında, tarix yazdı və torpaqlarımız azad edildi. 1993-ci ildə faciə içində Cəbrayılı tərk edəndə 30 yaşım vardı. İndi isə 60 yaşımdayam, yurduma qayıtmışam. Şəhərə ilk daxil olanda erməni vandalizminin izləri bizi kövrəltsə də, dövlətimiz tərəfindən yenidən qurulan rayonumuzda gördüyüm irimiqyaslı işlər bizə sevinc bəxş etdi. Bizlərə verilən evlərdə bütün şərait yaradılıb, binaların həyəti abadlaşdırılıb.

**Cəbrayılı 3 yaşında tərk etmiş Famil Muradlı isə doğma şəhərinə azyaşlı övladı ilə qayıdıb:**

– Tarixi günlərə şahid oluruq, 30 illik Vətən həsrətimiz bitib, yenidən doğma yurdumuzda məskunlaşmışıq. Cəbrayıldan ailəmlə birlikdə məcburi köçkün düşəndə 3 yaşım vardı. Daha sonra yaşa dolduqca Vətən həsrətinin nə olduğunu anlamışam. Buranı tərk etdiyim yaşda olan övladımla Vətənə qayıtmışam. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun sayəsində torpaqlarımız azaddır. Bu yolda canlarından keçən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə isə cansağlığı versin.

***XQ***

# X Bakı Beynəlxalq Kitab Sərgisi davam edir

**Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində dahi şair və mütəfəkkir Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinə həsr edilən X Bakı Beynəlxalq Kitab Sərgisində dünyanın 18 ölkəsindən 56 xarici təşkilat, 110 yerli nəşriyyat-poliqrafiya müəssisəsi iştirak edir.**



Sərgi çərçivəsində naşirlərin çeşidli çap məhsulları təqdim olunur, şair və yazıçılarla, alimlərlə, səfirlərlə görüşlər keçirilir, bədii proqramlar göstərilir. Sərgidə azərbaycanlı müəlliflərlə yanaşı, qonaq yazıçılar da oxuculara yaradıcılıq hesabatı verir, yeni əsərlərini avtoqrafla ədəbiyyatsevərlərə bağışlayırlar. Poeziya saatları, sual-cavab sessiyaları, bədii tərcümə müqavilələrinin bağlanması və sair festivalın önəmli cəhətləri kimi diqqət çəkir.

Bakı Beynəlxalq Kitab Sərgisi, eyni zamanda, ziyarətçilərin və qonaqların böyük Füzulinin klassik irsi ilə yaxından tanış olmalarına imkanı yaradır. Bu baxımdan şairin yubileyi ilə bağlı ekspozisiyanın və "Məhəmməd Füzuli – 530" adlı biblioqrafik nəşrin təqdimatı təqdirəlayiq sayılmalıdır.

**Mədəniyyət Nazirliyinin kitab sənayesi şöbəsinin müdiri Akif Mariflinin dediyinə görə,** Bakı Beynəlxalq Kitab Sərgisi əvvəllər 2 ildən bir keçirilsə də, son 4 ildə ardıcıl olaraq təşkil edilir. Bu, həm formatına, həm də tədbirlərin sayına görə regionun ən böyük kitab sərgisidir. X Bakı Beynəlxalq Kitab Sərgisində 327 tədbirin keçirilməsi nəzərdə tutulur. Mütaliəyə marağın artırılması məqsədilə bir çox layihənin həyata keçirildiyini bildirən şöbə müdiri qeyd etdi ki, bu sərgi onların arasında ən böyüyüdür: "Sərgini bütün sahələrdən olan oxucular ziyarət edir. Burada mədəniyyətlər, düşüncələr birləşir".

Dünən Dövlət Tərcümə Mərkəzi və Venesuela Bolivar Respublikasının ölkəmizdəki Səfirliyinin birgə əməkdaşlığı ilə Bakıda Azərbaycan dilində tərcümə və nəşr olunmuş "Söyüd krallığı" kitabı (müəllif Venesuela şairi Anna Maria Oviedo Palomaresdır) kitabı təqdim olunub. Mərasimdə Venesuelanın səfiri Kristofer Alberto Martinez Berroteran, Meksikanın səfiri Viktoriya Romero, Kubanın səfiri Karlos Enrike Valdes de la Konsepsyon, Kolumbiyanın səfiri Luis Fernando Kuartas Ayala və digər qonaqlar iştirak ediblər.

Təqdimat mərasimində əvvəlcə Latın Amerikası ədəbiyyatının ölkədə tanıdılması istiqamətində həyata keçirilən layihələri əks etdirən videoçarx nümayiş olunub. Sonra Dövlət Tərcümə Mərkəzi İdarə Heyətinin sədri, Xalq yazıçısı Afaq Məsud Azərbaycanda Latın Amerikası ədəbiyyatına olan maraq və sevgidən, ərsəyə gətirilən kitabın bədii məziyyətlərindən danışıb.

Əsərin müəllifi Anna Maria Oviedo Palomares yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını bildirərək ədəbiyyatın, bədii sözün xalqları bir-birinə yaxından tanıdan, dostluq və anlaşma münasibətlərini möhkəmləndirən təsirli vasitə olduğunu qeyd edib. O, həmçinin şeirlərindən nümunələr səsləndirib.

Kitabı dilimizə tərcümə edən şair Mahir Qarayev, Venesuelanın səfiri Kristofer Alberto Martinez Berroteran "Söyüd krallığı"nın Azərbaycan oxucusunda xüsusi maraq yaradacağını qeyd ediblər. Mərasimdə Azərbaycan poeziyasının Venesuelada tanıdılması ilə bağlı fikir və təkliflər bildirilib. Sonda gecənin son akkordu kimi "Düzənliyin ruhu" Venesuela mahnısı səsləndirilib.

Beynəlxalq Kitab Sərgisinin ziyarətçisi – italiyalı ekspert, fotoqraf Fabrisio Konti müəllifi olduğu "Agdam Delenda est" kitabını təqdim edib. Onun nəfis toplusunda işğaldan azad olunmuş ərazilərimizin təsvirlərindən ibarət fotolar və şərhlər öz əksini tapıb. Erməni vandallarının işğal dövründə dağıtdıqları abidələrimizin, mədəniyyət ocaqlarımızın dünya ictimaiyyətinə tanıdılması baxımından bu nəşr böyük önəm daşıyır. Fabrisio Konti bu barədə ətraflı məlumat verdi: "Mən 4 il əvvəl Mədəniyyət Nazirliyinin dəstəyi ilə ilk dəfə Qarabağda olmuşam. Orada gördüyümk dağıntılar məni xeyli heyrətləndirdi və həmin torpaqlarda bərpa işlərinin şahidi olmaq üçün kitab yazmağa başladım. Qarabağda, ümumilikdə, 200 gündən çox qaldım və indi artıq o yerlərin sakinlərini özümə doğma insanlar bilirəm".

**Tanınmış tənqidçi, filologiya elmləri doktoru, Milli Məclisin deputatı Elnarə Akimova jurnalistlərə açıqlamasında dedi ki,** Beynəlxalq kitab sərgilərinin keçirilməsi ölkəmizin mədəni, ədəbi həyatında baş verən ən mütərəqqi hadisələrdən biridir. "Son dövrlər kitabların nəşri, onların təbliği və təqdimatlarının keçirilməsində irəliləyişlər var. Belə beynəlxalq kitab sərgilərinin ədəbi proseslərdə əhəmiyyəti böyükdür. Bu sərgilər mütaliəyə marağın artmasında, gənc nəslin kitabla ünsiyyətində körpü rolunu oynayır. Bu cür sərgilər vasitəsilə bir çox ölkələrlə mədəniyyət mübadiləsi aparılır, əməkdaşlıq əlaqələri qurulur. Bu mənada, X Bakı Beynəlxalq Kitab Sərgisi də münasibətlərin daha da yaxınlaşmasında mühüm platformadır".

Sonda xatırladaq ki, 10-cu Bakı Beynəlxalq Kitab Sərgisi daha 3 gün davam edəcək.

***Ə. DOSTƏLİ***
***XQ***

**5 Oktyabr Beynəlxalq Müəllimlər Günüdür**

# Yeni pedaqoji çağırış: "Daha təhsilli gələcək"



**Dünən ADA Universitetində 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə Təhsildə Yeni Çağırışlar V Beynəlxalq Forumu keçirilib. Elm və Təhsil Nazirliyi, Dünya Təhsil Forumu və Təhsilin İnkişafı Fondunun tərəfdaşlığı, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının və ADA Universitetinin təşkilatçılığı ilə keçirilən forumun devizi olub.**

Beynəlxalq məclisdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev bu forumun təhsil haqqında müzakirələri peşəkar səviyyəyə çatdıran bir platforma olduğunu vurğulayıb. Dünyanın bütün təhsil sistemlərində oxşar problemlər olduğunu və onların müzakirəsinin əhəmiyyətini qeyd edən nazir ölkəmizin təhsil fəlsəfəsi, təhsil liderliyi, elmi tədqiqatlara əsaslanan təhsil prosesi, təhsilin məzmunu, müəllimlər üçün bilik qədər insani keyfiyyətlərin də əhəmiyyətli olması, ali təhsilə baxış məsələlərinə toxunub.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin təhsil sahəsində qlobal trendlərə qoşulmaq üçün çox geniş imkanlar yaradacağına inamını ifadə edən Emin Əmrullayev məktəblərdə ətraf mühit savadlılığı ilə bağlı ölçmələr aparılmasının, yeni mədəniyyət və davranışların formalaşmasının vacibliyini diqqətə çatdırıb.

Nazir sonda müəllim adının məsuliyyətini bir daha xatırladaraq 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırıb.

Forumun moderatoru, "T-Network" platformasının rəhbəri Cəfər Mənsimi bildirib ki, tədbirin təşkilində əsas məqsəd təhsildə yeni çağırışları müzakirə etmək, ekoloji təhsilə, xüsusilə yaşıl təhsil ideyasına diqqəti artırmaq, yeni dövrün təhsil tələblərini nəzərdən keçirərək keyfiyyətin daha da yüksəldilməsinə nail olmaqdır. Forum ekoloji savadlılıq və davranış mədəniyyəti, təhsildə yaşıl çağırışlar və öhdəliklər, yaşıl bacarıqlar strategiyası, təhsilin gələcəyi və ekoloji innovasiyalar, yaşıl öyrənmə mühiti və müəllim hazırlığı, təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi mövzularını əhatə edir.

Sonra Dünya Təhsil Forumunun direktoru Dominik Savaj "Məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün hansı təşəbbüsləri həyata keçirə bilərlər?" mövzusunda təqdimatla çıxış edib. O, ətraf mühitin qorunmasında gənc nəslin rolunun daha önəmli olduğunu, buna görə də ailədə və məktəbdə onların bu yöndə formalaşmasının vacibliyini bildirib.

Dominik Savaj bildirib ki, dünya iqlim dəyişikliyinin təsirləri ilə mübarizə apararkən adətən onun təhsilə təsiri nəzərdən qaçırılır. Halbuki planetin artan temperaturu və istilik dalğaları təkcə ətraf mühiti təhdid etmir, həm də bütün dünyada milyonlarla uşağın təhsilinə mane olur. Məktəblər yaşıl bacarıqları effektiv inkişaf etdirmək üçün təşəbbüslər həyata keçirə bilər.

Şagirdlərdə yaşıl bacarıqların formalaşmasında COP29-un yaxşı fürsət olduğunu deyən qonaq əlavə edib ki, ölkələrin kurikulum sistemində də iqlim dəyişikliyi mütləq nəzərə alınmalıdır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer foruma onlayn qoşularaq, "Dayanıqlı inkişaf yolunda təhsil" barədə danışıb. O, PISA tədqiqatları əsasında müxtəlif ölkələrdə 15 yaşlı məktəblilərin ekoloji savadlılığının təhlil nəticələri və təbiət fənlərinə diqqəti artırmaqla planetin gələcəyinə sərmayə qoymağın vacibliyini vurğulayıb.

Forum çərçivəsində Estoniyada ekoməktəblər üzrə koordinator Maris Məgi "Ekoloji şüurlu şagirdləri necə yetişdirmək olar? Ekoməktəblərdən dərslər", ADA Universitetinin prorektoru Vəfa Kazdal "Təhsildə iştirakçılıq və əməkdaşlıq ekosistemi", pedaqogika üzrə tanınmış alim, təhsil tədqiqatçısı Özgür Bolat "Təbiət uşaqların nailiyyətlərinə və xoşbəxtliyinə necə təsir edir?" mövzularında təqdimatlarla çıxış ediblər. Təqdimatlarda ekoməktəblərin təcrübəsindən, fənlərarası inteqrasiyanın artırılmasının yaşıl dünya tələblərinə cavab vermək baxımından vacibliyindən, valideyn-övlad, müəllim-şagird münasibətlərindən danışılıb.

Beynəlxalq forum çərçivəsində təhsildə hansı yaşıl çağırışlar, ekoloji savadlılıq kimi actual məsələlər ətrafında da müzakirələr aparılıb.

***XQ***

**VII Beynəlxalq Animasiya Festivalı**

# "Üzünü sevgiyə çevirən" filmlər

**Artıq bir neçə gündür ki, VII Beynəlxalq Animasiya Festivalı öz işinə başlayıb. Festival Azərbaycan Animasiya Assosiasiyası və "PERI FILM MMC" tərəfindən, Mədəniyyət Nazirliyi və Kino Agentliyinin dəstəyi ilə təşkil olunub.**

Festivalın proqramına bir-birindən maraqlı yerli və xarici animasiya filmləri, müsabiqələr və peşəkar proqramlar daxildir. Builki festivalın əsas mövzusu "Sevgi" adlanır. "Üzünü sevgiyə çevir" şüarı ilə animasiyasevərlərə təqdim olunan filmlər insani duyğuları vizual şəkildə ifadə etməsi ilə maraq doğurur.

Qeyd edək ki, keçirilməyə başladığı bir neçə il ərzində bu festival qlobal platformaya çevrilməklə yanaşı, yerli animasiya mütəxəssislərinin bir araya gəlməsinə şərait yaradır. Animasiya rejissorlarını və studiyaları bir araya gətirmək, onları beynəlxalq təcrübə ilə tanış etmək baxımından da festival önəmlidir. Burada yüzlərlə animasiya filmi nümayiş etdirilir, ustad dərsləri, konfranslar, konsertlər, tamaşalar və sərgilər kecirilir.

Biz də builki animasiya tədbirində iştirak edərək, yerli və xarici animatorlarla tanış olduq, onlarla maraqlı söhbət etdik. Onların dediklərini oxuculara təqdim edirik.

**Animasiya rejissoru Nəzrin Ağamalıyeva:**




– Biz "Hədis" filmini çəkəndə düşündük ki, əvvəlcə onu klassik formada tamaşaçılara təqdim edək. Yəni personajlar da klassik formada olsun. Sonra fikirləşdik ki, bu, xeyli vaxt alacaq. Buna görə də, filmi digital formada yaratdıq. Amma çalışmışıq ki, filmdə animasiya effektlərini qoruyub saxlayaq. Burada gördüyünüz kimi, sulu boyadan da istifadə olunub. Sulu boya ilə ərsəyə gələn animasiya filmlərini daha çox sevirəm.

**Animasiya rəssamı və rejissor Məsud Pənahi:** – Bildiyiniz kimi, bu il "Tıq-tıq xanım" animasiya filminin 50 yaşı tamam olur. Bu, uşaqlar üçün ərsəyə gətirdiyim ən yaxşı cizgi filmi hesab olunur. Hazırda başqa bir cizgi filmi üzərində işləyirəm. Filmin prodüsseri Animafilm studiyasının direktoru Rəşid Ağamalıyevdir. Mövzu işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ilə bağlıdır. Qarabağda minaların partlaması nəticəsində indiyə qədər yüzlərlə insan həyatını itirib. Filmi çəkməkdə məqsədim "gizli qatil" sayılan mina və mərmilərlə çirklənmiş ərazilərə gələn insanların qorunmasına töhfə verməkdir.



Xatırladaq ki, festivala, əsasən, müsabiqə, müsabiqədənkənar və peşəkarlar üçün proqramlar daxildir. Ümumiyyətlə isə, bu il festivala 2 beynəlxalq və 2 yerli kateqoriya üzrə 37 ölkədən 196 film daxil olub, 18 ölkədən 48 filmin müsabiqədə iştirak etməsi məqbul sayılıb. Onlardan 12-si yerli, 36-sı isə beynəlxalq kateqoriyalarda yarışacaq.

***Fidan SALMANOVA***
***XQ***

Azərbaycan elləri

# Dağlar qoynunda muzey qəsəbə – Lahıc



**Bazar meydanından başlanan mərkəzi küçə çox vaxt qələbəlik olur. Çünki Lahıcın (İsmayıllı rayonu) qədimliyini özündə əks etdirən tikililər, misgər emalatxanaları, dükanlar, binalar, kürəbənd (çay daşından tikilmiş kanalizasiya xətti), milli suvenirlərin satış yerləri bu küçədə yerləşir. Yerli və xarici turistlər də bu küçə boyunca hərəkət edirlər.**

Emalatxanalardan yayılan çəkic səsləri, alış-veriş edənlərin hay-küyü, nallı atların ayaq səsləri, dərman bitkiləri satanların küçənin hər iki tərəfinə düzdükləri çeşidli mallar, gecə-gündüz axıb gedən bulaqların şırıltısı daş döşənmiş küçələr qəsəbəyə xüsusi ab-hava, görkəm verir. Biz Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru, usta Nəzər Əliyevlə onun Baş küçədəki emalatxanasında görüşdük.

Məlumat üçün deyim ki, Nəzər atasını uşaq ikən itirib. Evin böyük övladı olduğu üçün yeniyetmə vaxtından əmilərinin yanında çalışıb. Amma dərslərini də unutmayıb. Orta məktəbi bitirib Pedaqoji Universitetin riyaziyyat fakültəsinə qəbul olunub. Səkkiz il İsmayıllının kəndlərində müəllim işləyib. Sonra 5 il Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun nəzdində yeni təşkil olunan muzeyin direktoru olub. 1997-ci dən bəri (bir neçə il fasilə ilə) Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğuna rəhbərlik edir.

Nəzər bu gün də sənətindən ayrılmayıb. Deyir ki, bir gün emalatxanaya gəlməyəndə elə bilirəm ki, daha əlim çəkic tutmayacaq.

***– Usta, yorulmayasız. Deyəsən, siz qoruğun ikinci direktorusunuz?***

– Doğrudur. İlk direktor Lahıcın ağsaqqallarından olan, gözəl ziyalı Ənvər Balayev olub. O, pensiyaya çıxandan sonra könüllü olaraq işdən ayrıldı. Allah o kişiyə rəhmət eləsin.

***– Sizcə, Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğu hansı ehtiyacdan təşkil edilib?***

– Sovetlər vaxtında sərhədlər qapalı olsa da, Azərbaycana müəyyən qədər xarici qonaq və turistlər gəlirdilər. Bu zaman onları respublikamızda, adətən, bir neçə yerə – Qobustana, Şəkiyə və Lahıca aparırdılar. Çünki bu məkanlarda ilkinlik qorunub saxlanırdı, həm də qədim sənətkarlıq növləri yaşadılırdı. Bu yerlər həm də tarix və təbiət abidələri ilə zəngindir. Elə bu səbəbdən də Lahıcın qorunması, turizm mərkəzinə çevrilməsi önəmli məsələyə çevrilmişdi. Nəhayət, 1980-ci ildə respublika Nazirlər Soveti Lahıc Dövlət Tarix-Mədəniyyət Qoruğunun təşkili məqsədilə qərar verdi.

***– Qoruğun ərazisi neçə hektardır və burada qeydə alınan əsas tarix-mədəniyyət abidələri hansılardır?***

– Ümumi ərazisi 80 hektardır. Bunun 35 hektarı Lahıc qəsəbəsinin, 45 hektarı Ərəgit məhəlləsinin payına düşür. Bu ərazidə xüsusi əhəmiyyətli 92 abidə qeydə alınıb. Əsas abidələr 5 məscid, 5 hamam, 2 körpü, 1 su dəyirmanı, 12 asma bulaq və XlV əsrə aid daş kanalizasiyadır (kürəbənd). Qalanları isə yaşayış evləri, kitabələr və sərdabələrdir.

Əvvəllər məscidlər pis vəziyyətdə olub. Artıq 4 məscid təmir edilərək dindarların istifadəsinə verilib. Ağolu məscidi də təmirini gözləyir. Yəqin ki, vəsait ayrıldıqdan sonra bu məscid də lazımi səviyyədə təmir olunacaq. Onu da deyim ki, Lahıc Tarix-Diyarşünaslıq Muzeyi əvvəllər Ağolu məscidinin binasında yerləşirdi. O bina qəzalı vəzyyətə düşdüyündən muzey "İcma evi"nə köçürüldü. Gələcəkdə muzey üçün ayrıca bina inşa edilməsi yaxşı olardı. Ağolu məscidinin binası isə təmirdən sonra əlyazmalar muzeyi kimi fəaliyyət göstərəcək. Çox gözəl təşəbbüsdür. Bu məqsədlə Tarix-Diyarşünaslıq Muzeyində olan kitablar seçilib.Yararsız hala düşmüş kitabların və digər çap məhsullarının bərpasına başlanılıb.

Yeri gəlmişkən deyim ki, orada elə əlyazmalar və köhnə dərsliklər var ki, Lahıcın keçmişi haqqında dəyərli statistik məlumatlar verir. Məsələn, o kitablardan biri Tiflisdə nəşr olunub. Kitabı Lahıcda ilk dünyəvi məktəbin müəllimi Məmmədhəsən Əfəndiyev yazıb. Qeyd edim ki, M. Əfəndiyev sonralar tanınmış etnoqraf alim olub. Yazılanlardan belə çıxır ki, Lahıc o zaman indikindən böyük olub. Məsələn, yazılana görə, Rusiyada təhkimçilik hüququ ləğv edilən illərdə Lahıcda, ən azı, üç ustanın işlədiyi emalatxanaların sayı 251 təşkil edib. Bir və iki usta işləyən emalatxanalar da nəzərə alınsa, görün o zaman nə qədər istehsal sahəsi fəaliyyət göstərib.

Bəzən Lahıc haqqında danışanlar, yazanlar buranı sirli bir yer kimi qələmə vermək istəyirlər. Mən isə düşünürəm ki, insanlar sakit, qorxusuz həyat sürmək üçün bu məkana yığışıblar. Çünki o vaxtlar Azərbaycan ərazisinə tez-tez basqınlar olub, qırğınlar törədilib. Bu yerin yolu isə çətin olduğundan çox vaxt bura gəlib çıxa bilməyiblər. Eyni zamanda, Lahıcda hər cür məhsul becərilib, məişətdə zəruri olan qab-qacaq istehsal olunub. Tələbat olmasaydı, yəqin ki, bu qədər sənət növü inkişaf etdirilməzdi.



***– Məlumdur ki, Lahıcı şöhrətləndirən onun tarixi, sənətkarları və bu yurdun gözəl təbiətidir. Bazar iqtisadiyyatı şəraitində sənətkarlar necə işləyir, necə dolanırlar?***

– Sovet dövründə misgərliklə məşğul olanlar çox idi. Amma keçid dövründə yaranan çətinliklər səbəbindən ustalar müxtəlif şəhərlərə, əsasən də Şamaxıya, Bakıya getdilər. Onlar indi də öz sənətləri ilə məşğuldurlar. Usta hazırladığı məhsulu sata bilmirsə, necə yaşamalıdır, xammalı hansı pulla almalıdır? Lahıcda o sənətkarlar qalıblar ki, belə demək olarsa, heç nədən pul qazana bilirlər. Gedənlər yenə istəyəndə qayıdacaqlar. Onlar harada işləsələr də, yenə Lahıcın adını uca tutmağa çalışırlar.

Açığı deyim ki, xırda sənətkarların problemləri çoxdur. Bu məsələni isə müəyyən dəstək verməklə həll etmək mümkün deyil. Bizə dəfələrlə hətta faizsiz kredit vermək təklif olunub. Amma biz o kreditləri indiki qazancla qaytara bilmərik. Bunun üçün gərək ustanın hazırladığı məhsullar vaxtlı-vaxtında, istədiyi qiymətə satıla. İndi isə belə bir bazar yoxdur. Bazar xaricdə istehsal olunmuş aşağı keyfiyyətli mallarla doludur.

Onu da deyim ki, yeni nəsil gənclər də bu sahədə işləməyə, sənəti dərindən öyrənməyə meyilli deyillər. Onlar yaxşı qazancı olan işlər axtarırlar. Buna görə milli sənətin bir çox növləri getdikcə unudulur. Bu, problem isə yalnız bizdə yox, beynəlxalq miqsayda yaşanır. Qısaca desək, bu məsələni zaman tənzimləməlidir.

Qoy bir misal da çəkim. Vaxtilə Lahıcda sərraclıq sənəti də yaşadılırdı. Atlar üçün yəhər, noxta, üzəngi tikilirdi. İndi tərəkəmələrin çoxu atdan çox "Niva"dan istifadə edir, yaylaqlara da avtomobillə gəlirlər.

***– Nəzər usta, bilirəm ki, sizin çox zəngin etnoqrafik kolleksiyanız var. Bəlkə bu haqda özünüz danışasınız…***

– 40 ilə yaxındır ki, toplayıram. Əvvəllər el-obada belə əl işləri çox idi. Seçim edib daha əskisini, gözəl işlənmişini toplamağa çalışırdım, verəcəyim pula da qızırğalanmırdım. Sonralar işbazlar gümüş malların xeyli hissəsini əhalidən alıb xarici ölkələrə apardılar.

Hazırda kolleksiyamda 3 mindən çox eksponat var. Ölçüsünə görə böyükləri qədim xalçalar, kiçikləri isə mis pullardır.

***– Heç kolleksiyanızı almaq istəyənlər olubmu?***

– Bir neçə dəfə olub. Ancaq satmağa ürək eləməmişəm. Çünki o əşyalar mənim üçün puldan qat-qat qiymətlidir.

***– Kolleksiya zalında bir samovar dəsti də vardı. Mənə elə gəldi ki, o köhnə deyildi.***

– Doğrudur. O samovarı mən 8 aya işləmişəm. Üzərində Füzulinin "Leyli və Məcnun" poeması əsasında illüstrasiyalar çəkmişəm. O samovarı cənab Prezident Lahıca gələndə ona hədiyyə etdim. Çox xoşuna gəldi. Təşəkkür etdi. Sonra dedi ki, mən bunu aparsam, tamaşaçılar bunu görməyəcəklər. Buna görə mən də bu əsəri sənin kolleksiyana hədiyyə edirəm ki, qoy sənətsevərlər tamaşa edib, qiymət versinlər.

***– Usta, bilirəm ki, siz müxtəlif vaxtlarda Azərbaycan Prezidenti ilə görüşmüsünüz. Emalatxananızda asılan foto-şəkillər də bunun sübutudur.***

– Bəli, sənətimlə, işimlə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə bir neçə dəfə görüşmək qismətim olub. Bu görüşlər onun rayonumuza səfərləri zamanı, Bakıda keçirilən sərgilərdə, Novruz bayramı şənliklərində baş tutub. Bir neçə dəqiqəlik o görüşlər yaddaşımda böyük iz qoyub və həmişə hiss etmişəm ki, cənab İlham Əliyev sənətə, sənətkara xüsusi qayğı ilə yanaşır.

Mən, təxminən, 1996-cı ildən başlayaraq, rayonumuzda və paytaxtımızda keçirilən əksər bayram şənliklərində, turizm sərgilərində iştirak etmişəm. Yəqin sərgilərdə təqdim edilən əl işlərinin bərəkətində olub ki, mən sonralar dəfələrlə prezidentimizlə görüşmüş, söhbətləşmişəm. Onu da deyim ki, cənab Prezident Lahıcın inkişafına daim qayğı göstərir. O, sərgilərdə hər dəfə stendimizə baxdıqdan sonra Lahıc haqqında, onun turizmi və orada yaşayan insanların güzəranı haqda maraqlanıb.

***– Usta, Lahıcın dünənini və bugününü sabahına qovuşdurmaq işində sizə uğurlar arzulayırıq.***

*Söhbəti yazdı:*
***Səməd MƏLİKZADƏ***

"Xalq qəzeti"nin qonaqları

# 27 yaşlı Paralimpiya qəhrəmanımız



**Dünən "Xalq qəzeti" redaksiyasında Paris Yay Paralimpiya Oyunlarının daha bir qalibi ilə görüş keçirildi. Budəfəki qonağımız Paris Paralimpiadasının ilk qızıl medalını qazanaraq, Azərbaycanın Dövlət Himnini səsləndirən parataekvondoçu İmaməddin Xəlilov idi.**

***"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov İmaməddin Xəlilovu Paris Paralimpiadasında qazandığı möhtəşəm qələbə münasibətilə təbrik etdi. O qeyd etdi ki, paralimpiyaçılarımız Parisdə böyük uğurlar qazanaraq Azərbaycan bayrağını yüksəklərdə dalğalandırıblar. Baş redaktor sonra dedi:***

– İdmançılarımız öz çıxışları, əzmkar mübarizələri ilə gənc nəslə əsl nümunədirlər. Gənclərimiz təkcə idman yox, bütün sahələrdə Azərbaycanı layiqincə təmsil etmək üçün böyük səy göstərirlər. Dövlətimizin diqqət və qayğısı sayəsində idmançılarımızın ən nüfuzlu yarışlarda əldə etdikləri uğurların sayı ildən-ilə artır. Azərbaycan xalqı qazanılan qələbələrlə qürur duyur. Əminik ki, Azərbaycan təmsilçilərinin həyatın bütün sahələrində, eyni zamanda, idmanda böyük qələbələrinin sayı gələcəkdə daha da artacaq. Bu böyük nailiyyətlər dövlətimizin idman və siyasətinin məntiqi nəticəsidir.

İmaməddin Xəlilov xoş sözlərə və səmimi duyğulara görə media kollektivinə təşəkkür etdi. Onun "İndiyə qədər özüm üçün döyüşürdümsə, bundan sonra mənə baxaraq nümunə götürən fiziki məhdudiyyətli uşaqlara görə mübarizə aparacağam. Son zamanlar belə uşaqlar, onların valideynləri mənə tez-tez yazırlar. Bildirirlər ki, zirvəyə yüksəlmək üçün bütün səylərini toplayacaqlar. Bu, mənim üçün də böyük motivasiyadır. Bu, 10 qat Paralimpiya çempionu olmaqdan da yaxşıdır. Həyat mübarizədir. Bir an olsa belə ruhdan düşmək olmaz. İnsan istəsə, qarşıya qoyduğu bütün hədəflərə çata bilər", – fikirləri hər birimizə duyğulu anlar yaşatdı.

***Paralimpiya çempionu uşaqlıqda sağlam idmançılar arasında mübarizə apardığını, sonralar isə parataekvondoya keçdiyini də dedi:***

– Taekvondo və parataekvondoda qaydalar eyni olsa da, istisnalar var. Məsələn, taekvondoda başa zərbə olsa da, parataekvondoda bu qayda yoxdur. Təbii ki, həm məşqlər, həm də yarışlar zamanı bir çox çətinliklərim olurdu. Buna baxmayaraq, sona qədər mübarizə aparmaq istəyirdim. Ailəm də mənə böyük dəstək verirdi. Onlar mənə güvəndiklərini bildirir, mən də onların etimadını doğrultmağa çalışırdım. Fiziki məhdudiyyət səbəbindən bəzi fəndləri icra etmək olmur ki, bu da idman qaydalarına ziddir. Çünki bərabər rəqabət üçün şərait yaratmaq idmanın əsas qayəsidir.

***Ötən Olimpiya tsiklində dünya və 2 dəfə Avropa paraçempionatlarının qalibi olan idmançı gələcək hədəflərini də açıqladı. Dünya reytinqinin lideri "Los Anceles-2028"də də qızıl medalı hədəflədiyini bildirdi:***

–Növbəti Olimpiya Oyunlarında da qızıl medal qazanmaq istəyirəm. Tokio Paralimpiadasında məğlubiyyətimə çox üzülmüşdüm. Rəqiblərim fəxri kürsüdə durub, dövlət bayraqlarını dalğalandıranda qəribə hisslər keçirmişdim. Həmin an düşünürdüm ki, mən də Azərbaycanı layiqincə təmsil edib, fəxri kürsüyə yüksələ bilərdim. Üç il dayanmadan etdiyim məşqlər, qarşıya qoyduğum hədəfə doğru inamla irəliləməyim sayəsində Parisdə qalib adını qazandım. Azərbaycanın Dövlət Himni səsləndiriləndə, bayrağımız yüksəklərdə dalğalananda ölkəmizlə qürur duydum.

Görüşdə Paris Paralimpiadasında qazanılan uğurlardan söhbət açıldı. Bildirildi ki, 18 nəfərdən ibarət paralimpiya komandamız yarışda 4-ü qızıl olmaqla 11 medal qazanıb. Ümumi medal sıralamasında Azərbaycan 28-ci yeri tutub.

Qalib idmançıdan qəzetimiz üçün aldığımız geniş müsahibə növbəti saylarımızda oxuculara təqdim ediləcək.

***Leyla QURBANOVA***
***XQ***

# Ankarada Naxçıvan Sazişinin 15-ci ildönümü qeyd edilib

**Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev Ankarada Türk Dövlətləri Təşkilatının təsis sənədi olan Naxçıvan Sazişinin imzalanmasının 15-ci ildönümü və TDT Əməkdaşlıq Gününə həsr olunan toplantıda iştirak edib.**




Ankarada keçirilən mərasimdə Türk əməkdaşlıq təşkilatlarının rəhbərləri və türk ölkələrindən olan tanınmış alimlər əsas məsələləri və ortaq məqsədləri müzakirə ediblər. Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Omuraliyevin moderatorluğu ilə keçirilən "Türk əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri" adlı panel sessiyasında nəqliyyat, enerji və rəqəmsallaşma sahələrində türk dövlətlərinin mühüm nailiyyətlərindən bəhs olunub, bu sektorların türk xalqları arasında əlaqələri gücləndirdiyi vurğulanıb.

Akademik Şahin Mustafayev çıxış edərək 2009-cu il oktyabrın 3-də imzalanmış tarixi Naxçıvan Sazişinin siyasi əhəmiyyətini vurğulayaraq onu türk ölkələri arasında hərtərəfli əməkdaşlığın qurulmasında mühüm sənəd adlandırıb. O, Beynəlxalq Türk Akademiyasının son 2 ildə əldə etdiyi nailiyyətləri diqqətə çatdırıb, tarix, arxeologiya, etnologiya, dilçilik və incəsənət sahələrini əhatə edən 36 böyük elmi layihənin həyata keçirildiyini vurğulayıb. Ş.Mustafayev ortaq türk tarixinin tədqiqi məsələsinə xüsusi diqqət yetirərək, akademiya tərəfindən bu istiqamətdə Monqolustanda Kök-türk abidələrində aparılan arxeoloji qazıntıları və Qazaxıstanda Sırdərya çayı boyunca oğuz nümunələrinin tədqiq olunduğunu bildirib.

Bundan əlavə, akademik Türk dövlətləri arasında ünsiyyəti gücləndirmək üçün terminoloji lüğətlərin hazırlanmasının vacibliyini vurğulayıb, latın qrafikası əsasında vahid türk əlifbasının qəbul edilməsini mədəni inteqrasiyada həlledici addım kimi qiymətləndirib: "Əldə olunmuş irəliləyişlərə baxmayaraq, ortaq gələcək naminə türk xalqları arasında əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində hələ görüləcək mühüm işlər var".

***Qabil YUSİFOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 218 (30622) 5 oktyabr 2024-cü il, şənbə

# Özbəkistanda Qərbi Azərbaycan dərsləri

**Azərbaycanın Özbəkistandakı səfirliyi və onun nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyəti Mərkəzinin təşkilatçılığı ilə Nizami adına Daşkənd Dövlət Pedaqoji Universiteti və Daşkənd Pedaqogika və İqtisadiyyat İnstitutunun tələbələri və magistrləri üçün "Qərbi Azərbaycana qayıdış" şüarı altında "Azərbaycan xalqının Qərbi Azərbaycanda yaratdığı maddi-mədəni və ədəbi irs" mövzusunda mühazirələr təşkil edilib.**



Tanınmış ədəbiyyatşünas alim, professor Mahirə Hüseynova tərəfindən oxunan mühazirələrdə tələbələrə xalqımızın Qərbi Azərbaycanda yaratdığı maddi-mədəni və ədəbi irs, mədəniyyət nümunələri, ədəbi prosesin inkişaf xüsusiyyətləri barədə geniş məlumat verilib.

Bildirilib ki, erməni təcavüzü nəticəsində tarixi ata-baba yurdumuz olan Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın doğma yerlərdən didərgin düşməsindən sonra orada Azərbaycan xalqı tərəfindən əsrlər boyu yaradılmış maddi-mədəni irsimiz də vandalizmə məruz qalıb. O torpaqların hər qarışında xalqımızın silinməz izləri vardır, bunun ən bariz nümunəsi isə Azərbaycan xalqına aid yer adlarının, toponimlərin hələ də öz varlığını qoruyub saxlamasıdır.

Diqqətə çatdırılıb ki, Qərbi Azərbaycandan köçkün düşmüş azərbaycanlılar respublikamızın müxtəlif bölgələrində və dünyanın fərqli ölkələrində yaşasalar da, hər zaman öz tarixi torpaqlarına dönəcəkləri günü gözləyirlər.

## İdman xəbərləri

# Futbol millimizi 2 oyun gözləyir



**Futbol üzrə Azərbaycan yığmasının UEFA Millətlər Liqasında Estoniya və Slovakiya ilə oyunlar üçün hazırlıq planı və səfər proqramı bəlli olub.**

Milli komanda oktyabrın 7-də toplaşacaq və ayın 8–9-da Neftçi Futbol Mərkəzində məşq keçəcək. Yığma oktyabrın 9-da Estoniyanın paytaxtı Tallinnə yollanacaq. Baş məşqçi Fernandu Santuş komandanı oktyabrın 10-da "Lilleküla" stadionunda Estoniya seçməsi ilə oyunöncəsi son məşqə çıxaracaq.

Qeyd edək ki, Azərbaycan milli komandası C liqasının I qrupu çərçivəsində oktyabrın 11-də səfərdə Estoniya yığması ilə, oktyabrın 14-də isə Bakıda Slovakiya seçməsi ilə qarşılaşacaq. Hər iki oyun eyni vaxtda – saat 20:00-da başlayacaq.

# Cüdoçumuz bürünc medal qazanıb




**Azərbaycan cüdoçusu Süleyman Şükürov Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilən gənclər arasında dünya çempionatında uğurla çıxış edib.**

Yarışın üçüncü günündə 81 kiloqram çəkidə tatamiyə çıxan idmançı 3-cü yer uğrunda görüşdə çinli Yianqnan Vanqa qalib gələrək bürünc medal qazanıb.

Bu, Azərbaycan millisinin hazırkı dünya çempionatında, hələlik, ilk medalı olub.

Qeyd edək ki, mübarizəyə qoşulan digər Azərbaycan cüdoçuları Aslan Kotsoyev və Tuncay Şamil ( hər ikisi 90 kiloqram) yarışı medalsız başa vurublar.

*L.AZAD*
*XQ*

# "Xəbər Agentliklərinin gələcəyi"

## *Romada AXAA-nın Baş Assambleyası keçirilib*

**Romada İtaliyanın ANSA agentliyinin təşkilatçılığı ilə Avropa Xəbər Agentlikləri Alyansının "Xəbər agentliklərinin gələcəyi" mövzusunda konfransı və Baş Assambleyası keçirilib.**



Tədbirlərdə EANA-nın üzvü olan AZƏRTAC, həmçinin təşkilata daxil olan agentliklərin nümayəndələri iştirak ediblər.

Konfransda xəbər agentliklərinin maliyyə mənbələrinin şaxələndirilməsi, informasiyanın gənc nəslə çatdırılmasının səmərəli yolları və yeni tədqiqatlar, süni intellektin xəbər istehlakına mümkün təsirləri müzakirə olunub.

Baş Assambleyada təşkilatın cari məsələlərinə baxılıb. EANA-nın "Maksim Minçev" Mükəmməllik Mükafatının qalibi "Süni intellekt əsaslı radio xəbərlər" layihəsi ilə Finlandiyanın STT agentliyi seçilib.

Keçirilən seçkilər zamanı Belçikanın "Belga" agentliyinin rəhbəri Patrik Lakroiks EANA-nın İdarə Heyətinin yeni üzvü, Aleksandru Giboi isə yenidən baş katib seçilib.




# Aspirin: necə və nə zaman?

**"Aspirin, şübhəsiz ki, insanlığın ən önəmli kəşflərindən biridir". Bu sözləri həkim-kardioloq Üzeyir Rəhimov deyib. O bildirib ki, ürək və beyin damar xəstəliklərdən baş verən ölümləri azaltmaqda və insan ömrünü uzatmaqda aspirin qədər effektli bir dərman yoxdur: "Ancaq gələcəkdə ürək, beyin və damar xəstəliklərini önləmək üçün profilaktik olaraq aspirinin istifadəsi sübuta yetirilməmişdir. Hətta əksinə, aspirinin profilaktik olaraq istifadə edilməsi hər min nəfərdən üçündə mədə qanamasına və bir neçəsində isə beyin qanamasına səbəb olur".**

Kardioloqun sözlərinə görə, həkiminiz məsləhət görmədiyi, yəni damarda daralma olduğunu bilmədiyiniz müddətdə qoruyucu olaraq aspirin istifadə etməyinizin sizə heç bir faydası yoxdur.

*P.ƏFƏNDİ*
*XQ*

# "Qu quşu" bürcündə 3 ulduz

**Alimlər TESS kosmik teleskopundan istifadə edərək üç ulduzdan ibarət yeni sistem aşkar ediblər. "TIC 290061484" adlanan üçlü ulduz sistemi "Cygnus" ("Qu quşu") bürcündə yerləşir. İki əkiz ulduz bir-birininin ətrafında cəmi 1,8, üçüncü ulduz isə bu cütlüyün ətrafında 25 Yer günündə tam dövr edir. Beləliklə, alimlər bütün məlum üçlü ulduz sistemləri arasında xarici ulduzun ən qısa orbital dövrünü tapıblar. Əvvəlki rekord 33 Yer günü idi.**



Alimlərin fikrincə, belə unikal üçlü ulduz sistemləri çox nadirdir. Lakin qalaktikada onların çox olduğu ehtimal olunur. Sadəcə, müasir texnologiyalar hamısını aşkarlamağa imkan vermir.

Yeni ulduz sistemi çox sıx konfiqurasiyaya malik olsa da, sistemin özü təəccüblü dərəcədə sabitdir. Astronomların sözlərinə görə, hər bir ulduzun cazibə qüvvəsi sistemdəki obyektin orbitlərinə o qədər də təsir etmir. Əgər ulduzlar eyni müstəvidə yerləşməsəydilər, o zaman belə bir sistem daha qeyri-sabit olardı. Təqribən 20–40 milyon ildən sonra iki daxili ulduzun bir-birinə yaxın fırlanacağı, sonda onların birləşərək partlayacağı ehtimal olunur.

*PÜNHAN*
*XQ*

# MEK-in elektron kitabxanası yeni nəşrlərlə zənginləşir

**Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının (MEK) elektron kitabxanasına yeni nəşrlər daxil olub. Bu barədə qəzetimizə kitabxanadan məlumat verilib.**




Qeyd edək ki, riyaziyyat, informatika, fizika, ədəbiyyat, linqvistika və başqa elm sahələrini əhatə edən nəşrlər sırasında "Elmi-tədqiqat üsulları", "Kompüter modelləşdirilməsi (dərs vəsaiti)", "Kondensə olunmuş hallar fizikası", "Adi diferensial tənliklərdən məsələ və misallar (dərs vəsaiti)", "Bitki akarologiyası", "Azərbaycan təsəvvüf ədəbiyyatı", "Ümumi fizika kursu", "Ölçüyə görə kvantlanmış sistemlər fizikası", "XIV əsr nəsr abidəsi Mustafa Zərininin "Siyərün-Nəbi" əsərinin leksikası", "Erməni dilində Azərbaycan-türk mənşəli sözlər" və başqaları yer alıb.

Mərkəzi Elmi Kitabxananın saytına daxil olaraq, yeni nəşrləri onlayn rejimdə oxumaq mümkündür.

Sərgilənən nəşrlər elmi tədqiqatla məşğul olan mütəxəssislər, araşdırmaçılar, ali məktəb tələbələri, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Qeyd edək ki, MEK-də yeni daxil olan ədəbiyyatların ənənəvi sərgisi də təşkil olunub.

*XQ*

# Paytaxtda külək, bölgələrdə yağış...



**Oktyabrın 5-də Bakıda hava şəraitinin yağmursuz keçəcəyi, rayonlarda bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir.**

Bu barədə mediaya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.

Bildirilib ki, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 14-18° isti, gündüz 21-26° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 65-75 faiz, gündüz 40-50 faiz olacaq.

Oktyabrın 5-də Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var.

Axşama doğru yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-17° isti, gündüz 22-27° isti, dağlarda gecə 2-7° isti, gündüz 13-18° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

*✓ "Gənclik" İdman Sağlamlıq Mərkəzi İctimai Birliyi (VÖEN 0700002471) ləğv olunduğunu elan edir. Kreditorlar öz tələblərini 2 ay müddətində AZ6800, Naxçıvan Muxtar Respublikası, Şərur şəhəri, Natəvan küçəsi 6 nömrəli ünvana göndərə bilərlər.*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2233
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00